Azərbaycan Respublikası
Təhsil Nazirliyi

Layihə Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

Təhsil İnstitutu
Azərbaycan Respublikasının Təhsil İnstitutu

İxtisasın adı: Tərbiyəçi-müəllim (məktəbəqədər)



# İNKİŞAFETDİRİCİ, DƏSTƏKLƏYİCİ VƏ TƏHLÜKƏSİZ MÜHİTİN YARADILMASI

Bakı 2020

Bu modul dərs vəsaiti Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyini dəstəkləmək üçün “Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək” (EuropeAid/138339/DH/SER/AZ) layihəsi tərəfindən hazırlanmışdır. Modulda ifadə olunan fikirlər və məlumatlara görə Avropa İttifaqı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutu məsuliyyət daşımır.

Modul dərs vəsaiti müvafiq təhsil proqramları (kurikulumlar) üzrə bilik və bacarıqların verilməsi məqsədilə hazırlanmışdır və ali təhsil səviyyəsində müvafiq modulların tədrisi üçün tövsiyə edilir. Modul dərs vəsaitinin istifadəsi ödənişsizdir və kommersiya məqsədi ilə satışı qadağandır.

**Müəlliflər:** Şəhla Əliyeva, Xalidə Həmidova, Svetlana Mustafayeva

**Modul üzrə məsləhətçi:** Aynur Kərimova

© Bakı – 2020
Modulda ifadə olunan fikirlər müəllifə aiddir, istifadə olunmuş fotolar açıq mənbələrdən götürülmüşdür. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması modul müəlliflərinin məsuliyyətidir.

# MÜNDƏRİCAT


**ƏSAS ANLAYIŞLAR ... 6**

**GİRİŞ ... 8**

**MODULUN SPESİFİKASİYASI ... 9**

**TƏLİM NƏTİCƏSİ 1: İNKİŞAFETDİRİCİ MÜHİT YARATMAQ ... 11**

1.1. Verilən mövzuya uyğun inkişafetdirici mühitin yaradılması üçün təkliflər hazırlayır 12

Tələbələr üçün fəaliyyətlər ... 20

Qiymətləndirmə ... 21

1.2. İnkişafetdirici mühitin dəstəklənməsi üçün mərkəz və ya guşələrin layihələrini hazırlayır ... 22

Tələbələr üçün fəaliyyətlər ... 37

Qiymətləndirmə ... 38

**TƏLİM NƏTİCƏSİ 2: DƏSTƏKLƏYİCİ MÜHİT YARATMAQ ... 39**

2.1. Sağlam, həvəsləndirici, yaradıcı və inklüziv mühit üçün layihələr hazırlayır ... 40

Tələbələr üçün fəaliyyətlər ... 45

Qiymətləndirmə ... 46

2.2. Sosial-emosional mühitin yaradılması üçün tədbirlər planını şəraitə uyğun hazırlayır ... 48

Tələbələr üçün fəaliyyətlər ... 54

Qiymətləndirmə ... 55

2.3. Təlim, tərbiyə və inkişaf prosesində oyuncaq, material və avadanlıqları uşaqların yaş xüsusiyyətlərinə uyğun seçir ... 57

Tələbələr üçün fəaliyyətlər ... 66

Qiymətləndirmə ... 67

2.4. Təhlükəli vəziyyətlərdə düzgün davranış qaydalarının tətbiqi üçün müxtəlif metodları təsvir edir ... 68

Tələbələr üçün fəaliyyətlər ... 76

Qiymətləndirmə ... 78

**CAVABLAR ... 79**

**ƏDƏBİYYAT SİYAHISI ... 80**

# ƏSAS ANLAYIŞLAR

**0-3 yaşlı uşaqlar üçün inkişaf və təlim mühiti –** uşağın inkişafı və böyüməsi üçün maksimal şəraitin yaradılması.

**Dəyərləndirmə –** dəyərləndirmə toplanmış məlumatların təhlili və nəticələrin çıxarılması prosesi. Dəyərləndirmə uşağın əldə etdiyi irəliləyişi müəyyən etmək üçün toplanmış məlumatlar barədə mühakimə yürütməkdən və həmin məlumatları şərh etməkdən ibarətdir.

**Dəyərlər –** şəxsiyyəti şərtləndirən keyfiyyətlər.

**Diferensiallaşdırma –** uşaqların fərdi xüsusiyyətlərinin, maraq və tələbatlarının, fiziki və əqli inkişaf səviyyələrinin, psixo-fizioloji xüsusiyyətləri nəzərə alınmaqla təlimin təşkil olunması.

**Erkən dövr inkişaf və təlim kurikulumu –** uşaqların erkən (0-3 yaş) dövr inkişaf və təliminin son məqsədlərini, həmin məqsədlərə çatmaq üçün müəyyən edilən yol, forma və vasitələri, uşaq inkişafının və təliminin izlənilməsini və dəyərləndirilməsini, inkişaf səviyyəsini müəyyənləşdirmək mexanizmlərini özündə cəmləşdirən dövlət sənədi.

**Əməkdaşlıq –** "tərbiyəçi-uşaq", "uşaq-uşaq", "valideyn-tərbiyəçi","uşaq-valideyn" münasibətlərində qarşılıqlı fəaliyyətin təmin olunması.

**Fasilitasiya –** qrupda diskussiyanın təşkili, fəallaşdırılması, səmərəli yönəltmə prosesi, **fasilitator** isə - uşaq tərəfindən biliklərin əldə edilməsi prosesində bələdçi rolunu yerinə yetirən şəxsdir.

**Fəaliyyətin aparıcı növü –** uşaq həyatının bu dövründə uşağın inkişafına imkan yaradan ən yüksək dərəcəli fəaliyyət.

**İnkişaf sahələri –** uşaqların inkişaf sahələri üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmunun zəruri hissəsi.

**İnklüziv təhsil –** təhsilin hamı üçü əlçatan olmasını nəzərdə tutan və bütün uşaqların müxtəlif ehtiyaclarına uyğunlaşıdırlmasına əsaslanan inkişaf prosesidir. Bu, sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb olunmasını da təmin edir.

**Məktəbəqədər təhsil –** məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki və mənəvi inkişafına xidmət edən, ilkin bilik, bacarıq və vərdişlərin mənimsənilməsinin formalaşdırılması prosesi.

**Məktəbəqədər təhsil müəssisəsi –** məktəbəqədər təhsilin dövlət standartlarına uyğun olaraq məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsini, əqli, fiziki, mənəvi inkişafını və məktəbəhazırlığını həyata keçirən təhsil müəssisəsi.

**Məktəbəqədər təhsildə qiymətləndirmə –** məktəbəqədər yaşlı uşaqların inkişafı, nailiyyətləri və xüsusi ehtiyacları haqqında məlumatın toplanması və dəyərləndirilməsi prosesi.

**Məktəbəqədər təhsilin dövlət standartı –** uşaqların, ailənin, cəmiyyətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan, ölkədə məktəbəqədər təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsinə xidmət edən ümumi normalar məcmusu.

**Məktəbəqədər təhsilin kurikulumu –** təlim nəticələri və məzmun standartlarını, inkişaf sahələrini, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sistemini özündə əks etdirən konseptual dövlət sənədi.

**Məzmun standartı –** dövlətin təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyduğu dövlət tələbi.

**Motivasiya –** məşğələnin vacib komponenti olmaqla, uşaqların idrak fəallığına təkan verən proses.

**Nəticəyönümlülük –** fəaliyyətin əvvəlcədən müəyyən olunmuş nəticələr əsasında qurulması.

**Portfolio –** uşaq haqqında məlumatların və onun müəyyən müddət ərzində yerinə yetirdiyi işlərin toplandığı xüsusi qovluq.

**Resurslar –** məzmun standartlarının reallaşdırılmasında istifadə olunan təlim vasitələri.

**Şəxsiyyətyönümlü təlim prosesi –** əsasında fərdiliyin tanınması, hər bir insanın orijinallığı, dəyəri, onun hər şeydən əvvəl şəxsiyyət kimi inkişafı, özünün təkrarolunmaz subyektiv təcrübəsi dayanan təlim.

**Şəxsiyyətyönümlülük –** uşaqlara bütöv bir şəxsiyyət kimi yanaşmağı və onlarda həyat üçün lazım olan ən zəruri dəyərlərin formalaşdırılmasını vəzifə kimi qarşıya qoyan prinsip.

**Təhsildə inteqrasiya –** təlimin məzmun komponentlərinin əlaqələndirilməsini təmin edən didaktik prinsip.

**Təlim nəticəsi –** müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret səviyyəsi.

**Təlim strategiyası –** təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusu.

**Təlimin məzmunu –** uşaq şəxsiyyətinin formalaşmasına yönəlmiş bacarıqlar şəklində ifadə edilən təlim nəticələrinin (təlim standartlarının) məcmusu.

**Tərbiyəçi-müəllim –** uşaqların təlim-tərbiyəsini, hərtərəfli inkişafını, məktəbəhazırlıq təlimini təşkil edən və həyata keçirən, məktəbəqədər təhsil sahəsi üzrə ali və ya orta ixtisas təhsilli şəxs.

**Uşağın inkişafı –** uşağın hərəkətlərin, təfəkkürün, nitqin, qavrayış və ünsiyyətin mürəkkəb növlərini öyrəndiyi təşkil olunmuş və uzunmüddətli proses.

**Uşaq nailiyyətləri –** təlim zamanı uşaqların qazandıqları dəyərlər.

# GİRİŞ

**Hörmətli oxucu!**

Məktəbəqədər təhsilin inkişafı üçün aşağıdakı sahələri əhatə edən çoxkomponentli təhsil mühiti yaradılmalıdır. İnkişafetdirici təhsil mühitinin bu günün tələblərinə müvafiq qurulması, böyüklərlə qarşılıqlı əlaqənin yaradılması, həmyaşıdlarla qarşılıqlı münasibətlərin qurulması, uşaqda dünyaya və özünə münasibətin yaradılması vacib məsələlərdəndir. Yaradılan öyrədici mühit uşaqların inkişafını, fiziki və əqli sağlamlığının qorunmasını təmin etməlidir.

Bu modul məktəbəqədər yaş dövrünə uyğun təhsil mühitinin formalaşdırılması sahəsində çalışacaq gələcək tərbiyəçi-müəllimlərin peşəkar səriştələrinin inkişafını təmin etmək məqsədi ilə hazırlanmışdır. Modulda məktəbəqədər təhsilin dövlət standartının tələbləri nəzərə alınaraq çoxkomponentli təhsil mühitinin hazırlanmasında təhsilalanların bacarıqlarını inkişaf etdirmək üçün tələbə fəaliyyəti və müvafiq qiymətləndirmələr verilmişdir. Modulu uğurla bitirən tələbə bir çox bacarıqlar əldə etmiş olacaq.

Modul 2 təlim nəticəsindən ibarətdir. Hər bir təlim nəticəsi üzrə qiymətləndirmə meyarlarının məzmunu açıqlanmış, verilən məzmunun möhkəmləndirilməsi üçün "Tələbələr üçün fəaliyyətlər" və təhsilalanın məzmunu hansı səviyyədə qavradığını qiymətləndirmək üçün "Qiymətləndirmə" bölməsi verilmişdir.

Birinci təlim nəticəsi inkişafetdirici, öyrədici, həvəsləndirici, yaradıcı və inklüziv mühitin təşkili qaydalarını və həmin mühiti dəstəkləmək üçün layihələrin hazırlanmasını əks etdirir.

İkinci təlim nəticəsi, sağlam, həvəsləndirici, yaradıcı və inklüziv mühit üçün layihələrin hazırlanmasını, sosial-emosional mühiti yaratmaq üçün tədbirlər planının hazırlanmasını, təlim, tərbiyə və inkişaf prosesində oyuncaq, material və avadanlıqları uşaqların yaş xüsusiyyətlərinə uyğun istifadəsini və təhlükəli vəziyyətlərdə düzgün davranış qaydalarını əks etdirir.

Əziz təhsilalanlar! Unutmayın ki, gələcək fəaliyyətinizin yüksək səviyyədə qurulmasının əsası, sizə təqdim edilən materialların həm nəzəri, həm də praktiki mənimsənilməsindən çox asılıdır.

# MODULUN SPESİFİKASİYASI

| **Modulun adı:** | İnkişafetdirici, dəstəkləyici və təhlükəsiz mühitin yaradılması |
|---|---|
| **Modulun kodu:** | SS-2020-07 |
| **Modulun ümumi məqsədi:** | *Bu modulu tamamladıqdan sonra tələbə müvafiq mərkəz və güşələrin layihələrini hazırlayaraq inkişafetdirici mühit yaratmağı, sağlam, həvəsləndirici, yaradıcı, inklüziv və sosial-emosional mühiti yaradaraq dəstəkləyici mühit yaratmağı, təhlükəsizlik və düzgün davranış qaydalarını tətbiq etməklə təhlükəsiz mühit yaratmağı bacaracaqdıq.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. İnkişafetdirici mühit yaratmaq | ➢ Verilən mövzuya uyğun öyrədici mühit yaratmaq üçün təkliflər hazırlayır;<br>➢ İnkişafetdirici mühiti dəstəkləmək üçün mərkəz və ya güşələrin layihələrini hazırlayır. |
| 2. Dəstəkləyici mühit yaratmaq | ➢ Sağlam, həvəsləndirici, yaradıcı və inklüziv mühit üçün layihələr hazırlayır;<br>➢ Sosial-emosional mühiti yaratmaq üçün tədbirlər planını şəraitə uyğun hazırlayır;<br>➢ Təlim, tərbiyə və inkişaf prosesində oyuncaq, material və avadanlıqları uşaqların yaş xüsusiyyətlərinə uyğun seçir.<br>➢ Təhlükəli vəziyyətlərdə düzgün davranış qaydalarını tətbiq etmək üçün müxtəlif metodları təsvir edir. |

# TƏLİM NƏTİCƏSİ 1

# İNKİŞAFETDİRİCİ MÜHİT YARATMAQ

## 1.1. Verilən mövzuya uyğun inkişafetdirici mühitin yaradılması üçün təkliflər hazırlayır

### İnkişafetdirici mühitin yaradılması üçün təkliflərin hazırlanması

### İnkişafetdirici-öyrədici mühitin konsepsiyası

Müasir məktəbəqədər pedaqoji elm və təcrübənin ən mühüm vəzifələri uşaqların sağlamlığının qorunması, onların hərtərəfli inkişafı, təlim və tərbiyə prosesinin humanistləşdirilməsi və gücləndirilməsi məsələləridir.

Məktəbəqədər təhsil proqramı həyata keçirilən müəssisədə əşyavi-inkişaf mühiti təhsilin keyfiyyətinin qiymətləndirilməsi üçün ən vacib meyarlardan biridir.

Məktəbəqədər müəssisələrdə təhsil mühitinin inkişaf etdirilməsi standartların həyata keçirilməsində əsas amil hesab olunur. Bu zaman fəalliyyət əsasdır və o, psixikanı qurur. Fəaliyyətsizlik şəxsiyyətin formalaşmasına mənfi təsir göstərir və imkanları məhdudlaşdırır. Bir çox alim şəxsiyyətin inkişafında fəaliyyət və fəaliyyətsizlik haqqında fikirlər bildirmişdir. Məsələn, A.V.Zaporojes fəaliyyəti yüksək dəyərləndirir və fəaliyyəti uşaqların zehni inkişafının gücləndirilməsi (zənginləşdirilməsi) kimi izah edirdi. Bu zaman aşağıdakılar (Qrafik 1.1 ) nəzərə alınmalıdır:




**Qrafik 1.1. Fəaliyyətin təşkil olunması**

***Təhsilləndirici mühit:***

- Uşaqların fiziki və psixi sağlamlığının qorunması və möhkəmləndirilməsinə təminat verir;
- Uşaqların emosional rifahını təmin edir;
- Pedaqoji işçilərin peşəkar inkişafına kömək edir;
- Dəyişən variativ məktəbəqədər təhsil üçün şərait yaradır;
- Məktəbəqədər təhsilin açıqlığını təmin edir;
- Valideynlərin (qanuni nümayəndələrin) təhsil fəaliyyətində iştirakına şərait yaradır.

Məktəbəqədər təhsil müəssisəsinin təhsil mühiti təhsil prosesinin nəticələri, şəxsiyyətlərarası münasibətlərin xarakteri və hər bir uşağın inkişafına təsir göstərir.

Təhsilləndirici mühit uşaqların inkişafına şərait yaradır. Məktəbəqədər təhsil müəssisəsinin inkişafda olan təhsil mühiti aşağıdakı komponentlərdən ibarətdir:

- Pedaqoji proses iştirakçılarının qarşılıqlı əlaqəsindən;
- Əşya-məkan mühitindən (Şəkil 1.1);
- Məktəbəqədər təhsilin məzmunundan.



**Şəkil 1.1. Əşyavi-məkan mühiti**

1. Pedaqoji proses iştirakçılarının qarşılıqlı əlaqəsi tərbiyəçi-müəllim, uşaq və valideynlərin birgə tapşırıq və nəticələrə nail olunması üçün razılaşdırılmış fəaliyyətidir.
2. Əşyavi-məkan mühiti təhsil mühitinin tərkib hissəsidir. Orada təhsil avadanlığı, materiallar, mebel, inventar, oyunlar, oyuncaqlar və s. təqdim olunur.
3. Məktəbəqədər təhsilin məzmunu bilik, bacarıq və vərdişlər, dünyagörüşü və əxlaqi-estetik ideyalar, eləcə də sosial, idrak və yaradıcılıq təcrübəsinin elementləri sistemidir.

Təhsil mühitinin bütün komponentləri bir-birilə bağlıdır və bir-birindən asılıdır:

*1. Məktəbəqədər təhsil müəssisəsinin təhsilləndirici mühitinin strukturunda böyük əhəmiyyət kəsb edən təlim prosesində iştirakçıların qarşılıqlı əlaqəsi vardır.*

Qarşılıqlı əlaqə məktəbəqədər təhsil müəssisəsinin kollektivinin peşəkar səriştəsindən asılıdır. Kollektivin yaradıcılıq və innovasiya fəaliyyətinə hazır olması, uşaqlar və onların valideynləri ilə qarşılıqlı əlaqədə kommunikativ qabiliyyətlərin təzahürüdür.

Nəticədə, təkcə hər bir uşağın deyil, həm də tərbiyəçi-müəllimin peşəkar və şəxsi inkişafı baş verir.

*2. İnkişafetdirici mühit - xüsusi təşkil olunmuş məkanla təmsil olunan təhsilləndirici mühitin bir hissəsidir.*

Hər hansı bir yaş qrupu üçün əşya-məkan mühitinin yaradılması və öyrədici mühitin müasir formada dizaynı zamanı yaş qrupunun psixoloji xüsusiyyətləri nəzərə alınmalıdır.

3. *Məktəbəqədər təhsil müəssisəsinin təhsil mühitinin növbəti komponenti məktəbəqədər təhsilin məzmununun mənimsənilməsidir*.

*Məktəbəqədər təhsilin məzmunu* aşağıdakılarla müəyyən edilir:

- Dövlət təhsil standartları;
- Məktəbəqədər müəssisə tərəfindən işlənib hazırlanan əsas təhsil proqramı;
- Məktəbəqədər təhsil müəssisəsinin qrup uşaqlarının yaş və fərdi inkişafının xüsusiyyətləri.

Beləliklə, təhsil mühiti uşaqların böyüməsi prosesində daim dəyişən, uşağa yaşın genetik vəzifələrini mənimsəməyə kömək edən açıq və canlı sistemdir.

**İnkişafetdirici mühitin təşkilinə qoyulan tələblər**

İnkişafetdirici təlim mühiti uşaqların təfəkkür, sosial, emosional, fiziki və yaradıcı inkişafına böyük təsir göstərir. Fiziki və psixoloji baxımdan təhlükəsiz və həvəsləndirici mühit yaradılaraq uşaqların müstəqil və qrup fəaliyyətləri, oyunlar, müxtəlif vasitələr və böyüklərlə qarşılıqlı əlaqə vasitəsilə inkişafı dəstəklənir. Uşaqyönümlü mühitin yaradılması işində aşağıdakı prinsiplər nəzərə alınmalıdır:

- Uşaqların ətraf mühitdə olan əşyalar və onları əhatə edən insanlarla qarşılıqlı əlaqə quraraq öyrənməsi və biliklər qazanması;
- Uşaqların inkişafı və öyrənməsinin təmini üçün onların maraq, ehtiyac və güclü tərəflərinin nəzərə alınması.

İnkişafetdirici mühitin daxili (məktəbəqədər təhsil müəssisəsinin və qrupun daxili mühiti) və xarici (məktəbəqədər təhsil müəssisəsinin həyətyanı sahəsi) olmaqla 2 tipi mövcuddur.

Daxili inkişafetdirici mühit: Fəaliyyət mərkəzləri belə mühitin yaradılması üçün əsas vasitədir. Belə mühit uşağın maraq (müxtəlif mərkəz və materiallar) və ehtiyaclarına (uşağın fəaliyyət mərkəzini seçmək imkanı) uyğun təlimin təcrübədə həyata keçirilməsinə imkan verir.

Xarici inkişafetdirici mühit: Məktəbəqədər təhsil müəssisəsinin sahəsi daxili məkanda mümkün olmayan imkanları təmin etməlidir.

*Əşyavi-məkan mühiti inkişaf etdirilməklə aşağıdakılar təmin edilməlidir:*

- Uşaq və böyüklər arasında ünsiyyət və əməkdaşlığın yaradılması imkanı;
- Uşaqların motor fəaliyyəti imkanı;

Fərdi fəaliyyət üçün fürsət.

*İnkişaf edən əşyavi-məkan mühiti üçün aşağıdakılar təmin edilməlidir (Şəkil 1.1) :*

- Müxtəlif təhsil proqramlarının həyata keçirilməsi;
- İnklüziv təhsil üçün zəruri şərait;
- Təhsil fəaliyyətinin həyata keçirildiyi milli-mədəni və iqlim şəraitinin nəzərə alınması;
- Uşaqların yaş xüsusiyyətlərinin nəzərə alınması.

Təhsil məkanının inkişaf edən təhsil mühiti kimi çıxış etməsi üçün ona daxil edilən komponentlərin qarşılıqlı təsiri zamanı müəyyən xüsusiyyətlər əldə edilməlidir:

- Təhsil strukturlarının şəxsiyyət, ətraf mühit və cəmiyyətin dəyişən ehtiyaclarına uyğun olaraq sürətlə yenidən qurulma qabiliyyətini ifadə edən *çeviklik;*
- Daxil edilən elementlərin fəaliyyətində qarşılıqlı fəaliyyət və ardıcıllıq vasitəsilə ifadə olunan *davamlılıq;*
- Əhalinin təhsil xidmətlərinə olan tələbatına uyğun olaraq inkişaf mühitinin dəyişilməsini nəzərdə tutan *variativlik;*
- Ona daxil edilən strukturların qarşılıqlı fəaliyyətinin gücləndirilməsi vasitəsi ilə tərbiyə məsələlərinin həllini təmin edən *inteqrasiya;*
- Təhsilin bütün subyektlərinin idarəetmədə geniş iştirakı, təlim, tərbiyə və qarşılıqlı fəaliyyət formalarının demokratikləşdirilməsini nəzərdə tutan *açıqlıq.*

İdeal olaraq, məktəbəqədər təhsil müəssisəsi uşaq üçün təbii və real həyatı təqdim edir ki, bu da bir-biri ilə bağlı iki mühüm problemin həllinə zəmin yaradır. Bir tərəfdən, təlim-tərbiyə vəziyyətlərini uşaq həyatının reallıqlarına maksimum yaxınlaşdırır ki, bu da uşaqların şəxs olaraq qəbul edilməsinə köməklik edir, digər tərəfdən, uşağın insanın sosial varlığına maksimum yaxın olan vəziyyətində ona hərəkət etmək və ünsiyyət qurmasını öyrədir.

*Xüsusi şəkildə təşkil edilmiş mühit aşağıdakı tələblərə uyğun olmalıdır:*

- Uşağın özünütəhsil qabiliyyətinin inkişafına müsbət təsir göstərir;
- Stimulyator rolunda çıxış edir;
- Şəxsi inkişafı zənginləşdirir;

Müxtəlif qabiliyyətlərin erkən təzahürünə kömək edir.

Məktəbəqədər təhsil müəssisəsinin əsas proqramının strukturu və standartların tələblərinə uyğun olaraq ətraf mühit (Şəkil 1.2):



**Şəkil 1.2. Təhsilləndirici mühit nümunəsi**

- Təhsilin inkişafı prinsipinə uyğun olmalıdır. Bu prinsipin məqsədi isə uşağın inkişafıdır;
- Elmi əsaslandırma və praktik tətbiqetmə prinsiplərini birləşdirməlidir;
- Tamlıq, zərurət və yetərliliyin (kafilik) meyarlarına cavab verməlidir (qoyulmuş təhsil məqsəd və vəzifələri yalnız zəruri və kifayət qədər material üzərində həll etmək və ağlabatan minimuma maksimal yaxınlaşmağa imkan verməlidir);
- Uşaqların yaş imkanları və xüsusiyyətləri, təhsil sahələrinin spesifikası və imkanlarına uyğun olaraq təhsil sahələrinin inteqrasiyasını təmin etməli və təhsil prosesinin kompleks-tematik prinsipinə əsaslanmalıdır;
- Böyüklər və uşaqların birgə fəaliyyətində proqram təhsil vəzifələrinin həlli və

uşaqların müstəqil fəaliyyətinə yalnız birbaşa təhsil fəaliyyəti çərçivəsində deyil, həm də məktəbəqədər təhsilin spesifikasına uyğun olaraq rejim anları keçirməlidir;

- Tərbiyəçi müəllim və uşaq arasında yaşa uyğun qarşılıqlı əlaqə formaları üzrə tədris prosesini qurmalıdır;
- Yaş, gender, fərdi tələbatlar, maraq və qabiliyyətlər nəzərə alınmaqla uşaqların oyun fəaliyyətinin dəstəklənməsi və inkişafı üçün tam şəkildə şəraiti təmin etməlidir.

**Təhsil mühitinin strukturu**

Təhsil məkanını elə qurmaq lazımdır ki, uşaqlar özləri öz inkişaf təşəbbüsləri ilə çıxış etsinlər. Uşaqların maraqlarının hansı sahədə olduğunu görən böyüklər onların mənəvi, maddi və intellektual dəstəyini təmin etməli, müzakirə bacarığının formalaşması, kollektivlə müsbət ünsiyyət və uğura nail olmağına kömək etməlidirlər. Uşaqların fəaliyyəti üçün rahat mühit qaydaya salınır və məlumat mənbəyi, material və avadanlıqla təchiz olunur, ideyalar verilir və nümunələr nümayiş etdirilir.

Məktəbəqədər pedaqogikada inkişafetdirici mühit dedikdə uşaq və böyüklərin həyatının təşkilini təmin edən maddi-texniki, sanitar-gigiyenik, erqonomik (insanın fiziki və zehni xüsusiyyətlərinə əsaslanaraq məkan, əşya və obyektlərin ən etibarlı və effektiv şəkildə uyğunlaşdırılması), estetik və psixoloji-pedaqoji şərait kompleksi başa düşülür.

İnkişafetdirici mühitin mərkəzində inkişaf rejimində çalışan və öz məqsədi ilə uşağın şəxsiyyətinin formalaşması, onun fərdi imkanlarının açılması və idrak fəallığının formalaşdırılması proseslərini həyata keçirən təhsil müəssisəsi dayanır.

*İnkişafetdirici mühitdə əsas komponentlər aşağıdakılardır:*

- Əşya-məkan (fiziki mühit);
- Sosial (insan faktoru);
- Psixo-didaktik (təlim proqramı).

Əşya-məkan mühiti təlim sahələrinin inteqrasiyası prinsipinin nəzərə alınması ilə seçilməlidir. Bir təlim sahəsi üçün material və avadanlıqlardan digər sahələrin həyata keçirilməsi zamanı da istifadə edilə bilər.

Hər yaş qrupunun əşya məkanı uşaqların ümumi və fərdi tələbatlarını əks etdirən spesifik xüsusiyyətləri daşıyır. Bütün oyun və oyuncaqlar uşaqlar üçün əlçatan yerdə, oyun və təlim vəsaitləri uşaqların göz səviyyəsində yerləşdirilir. Oyun zonalarında xüsusi təşkil olunmuş, təlim prosesində istifadə olunan material yerləşdirilmişdir.

Uşaqlara qarşı bəzi ümumi prinsip və yanaşmalarda uşağın fərdi inkişafı, hər bir uşağın inkişaf tempi və fəaliyyətinin nəzərə alınması, onun öz seçimi və sərbəst fəaliyyətinə diqqət yetirilir. Burada eyni zamanda müəllimin fəaliyyəti mühüm rol onayır.

Mühit konsepsiyasına əsaslanaraq V.A. Petrovski, L.M. Klarina və başqaları məktəbəqədər müəssisələrdə inkişafetdirici mühitin qurulması prinsiplərini aşağıdakı kimi müəyyən etdilər:

- Qarşılıqlı münasibətdə məsafə və mövqe prinsipi;
- Fəaliyyət, müstəqillik və yaradıcılıq prinsipi;

- İnteqrasiya və çeviklik prinsipi;
- Ətraf mühitin emosional təbiəti, hər bir uşaq və böyüklərin fərdi rahatlığı və emosional rifahı prinsipi;
- Ətraf mühitin estetik təşkilində adət edilmiş və qeyri-adi elementlərin birləşdirilməsi prinsipi;
- Açıqlıq-qapalılıq prinsipi;
- Uşaqların cinsi və yaş fərqlərinin nəzərə alınması prinsipi;
- Səmərəlilik və məqsədəuyğunluq prinsipi.

Bu prinsiplərin hər birini qısaca nəzərdən keçirək:
*Qarşılıqlı münasibətdə məsafə və mövqe prinsipi:*

- Böyük və uşaqlar arasında əlaqənin yaradılması;
- Tərəfdaşlıq mövqeyi "Göz-gözə";
- Müxtəlif mebellərin yerləşdirilməsi;
- Uşağın fərdi avadanlıqlarının yerinin seçilməsi;
- Müxtəlif fəaliyyətlər təşkil edilərkən optimal məsafə.

*Fəaliyyət, müstəqillik və yaradıcılıq prinsipi:*

- O, uşağın əşya mühitinin formalaşdırılmasında özünü göstərməlidir: Oyun və didaktik vəsaitlər, yaradıcılıq divarının qurulması, təsvir, şəkillər və s..

*İnteqrasiya və çeviklik prinsipi:*

- Məktəbəqədər təhsil müəssisəsində qrupun sahəsi elə olmalıdır ki, o, kəsişməyən fəaliyyət sahələrinin qurulmasına imkan versin;
- Bu, uşaqlara öz maraqları və arzularına uyğun olaraq bir-birinə mane olmadan müxtəlif fəaliyyət növləri ilə sərbəst məşğul olmağa imkan verəcək: Bədən tərbiyəsi, musiqi, rəsm, konstruksiya, illüstrasiyalara baxış və s..

*Ətraf mühitin emosional təbiəti, hər bir uşaq və böyüklərin fərdi rahatlığı və emosional rifahı prinsipi:*

- Ətraf mühit elə təşkil edilməlidir ki, o, uşaqların müxtəlif elementlərlə qarşılıqlı əlaqəsini gücləndirsin və uşağın funksional fəaliyyətini artırsın;
- Mühitin yaradılması zamanı tam dəyərli "Mən" obrazının inkişafının formalaşdırılması üçün şərtləri nəzərə almaq lazımdır.

*Ətraf mühitin estetik təşkilində adət edilmiş və qeyri-adi elementlərin birləşdirilməsi prinsipi*:

- İnteryerdə sadə, lakin istedadlı etüdlər, estamplar və mücərrəd və ya yarımreal heykəlləri təsvir etmək vacibdir – bu, uşağa qrafika dilinin əsasları və müxtəlif mədəniyyətlər - Şərq, Avropa və Afrika haqqında bilik verir.

*Açıqlıq-qapalılıq prinsipi:*

- Birincisi, təbiətə açıqlıq və insanla təbiətin birliyi. Uşaqların yaşına uyğun olaraq

hazırlanan ekoloji zonalarda gündəlik iş, müşahidə və təcrübə tədricən təbiətdən yalnız həzz almaq və heyran olmaq deyil, kömək, qayğı, qorunma və s. kimi fəaliyyətlər açıqlanır;

- İkinci aspekt mədəniyyətə açıqlıqdır;
- Üçüncü aspekt cəmiyyətə açıqlıqdır;
- Dördüncüsü öz daxili dünyasının açıqlığıdır - "Mən" formalaşır;
- Məktəbəqədər təhsil müəssisəsinin binasında yaş dinamikasını əks etdirən müxtəlif kombinasiyalarda uşaq və böyüklərin ən müxtəlif fotoportretləri asılır;
- Albomlar və fotoşəkilləri olan qovluqlar uşaq üçün əlçatan yerlərdə saxlanılır ki, istədiyi vaxtda onlara baxa bilsin.

*Uşaqların cinsi və yaş fərqlərinin nəzərə alınması prinsipi:*

- Əşya inkişaf mühitini yaratmaqla uşaqların cinsi fərqlərini nəzərə almaq lazımdır;
- Ətraf mühit həm oğlan, həm də qızların cəmiyyətdə qəbul edildiyi kişilik və qadınlıq etalonlarına uyğun olaraq öz meylini göstərməyə imkan verməlidir;
- Bütün prinsiplər uşaqların yaş imkanlarına əsaslanmalıdır.

*Səmərəlilik və məqsədəuyğunluq prinsipi:*

Bu prinsip rahatlıq, genişlik, hər bir komponentin funksional əhəmiyyəti və estetikliyidir. Əgər biz bu prinsiplərin həyata keçirilməsindən kənarda əşya-inkişafetdirici mühiti yaratsaq, onda bizim mühitimiz ölü və bahalı oyuncağa çevriləcək.

- Uşaq bağçasının binasında yaş dinamikasını əks etdirən müxtəlif kombinasiyalarda uşaqlar və böyüklərin müxtəlif fotoportretləri asılır;
- Albomlar və fotoşəkillər olan qovluqlar uşaq üçün əlçatan yerlərdə saxlanılır ki, uşaq istədiyi vaxtda onlara baxa bilsin;
- Bütün prinsiplər uşaqların yaş imkanlarına əsaslanmalıdır.

**İnkişafetdirici təhsil mühitinin funksiyaları**

Uşaqların tərbiyəsi və təliminin əsas qanunauyğunluqları dövlət tələblərinə uyğun olaraq məktəbəqədər təhsil müəssisəsinin inkişaf edən təhsil mühiti funksiyalarını formalaşdırmağa imkan verir.

İnkişafetdirici təhsil mühitinin funksiyaları uşağın müstəqilliyi və özfəaliyyətini inkişaf etdirmək üçün işləməlidir.

Uşaqların ***fəallığının stimullaşdırılması funksiyası*** öz əsasında uşağa müxtəlif fəaliyyət növlərində fəal iştirak etmək üçün müxtəlif material təklif etmək məqsədi daşıyır.

***İnformasiya funksiyası***

Hər bir əşya informasiya ötürücüsüdür, müəyyən məlumatlar daşıyır və sosial təcrübənin ötürmə vasitəsinə çevrilir. Əşyanın elementləri funksional xüsusiyyətlərin zənginləşdirilməsi, komplektliyi və müxtəlifliyini təmin edir.

***Psixoloji sağlamlığın qorunması funksiyası***

Ətraf mühit uşağın emosional vəziyyətinə təsir edən vacib amildir. Material və

avadanlığın məzmunu, onların yerləşdirilməsi və otaqların tərtibatı müsbət emosiyalara səbəb olmalı, həm kollektiv ("Azad sahə"), həm də fərdi ("Təklik guşəsi" və s.) fəaliyyət üçün əlverişli yer tapmağa imkan verməlidir.

***Təşkilati funksiya***

Mühit mobil və dinamik olmalıdır. Tərbiyəçi-müəllim "Yaxın inkişaf zonası", uşağın yaşı, fərdi xüsusiyyətləri, ehtiyacları və istək və qabiliyyətlərini nəzərə almalıdır. Uşağa müxtəlif fəaliyyət növlərində fəal iştirak etmək üçün hər cür material təklif edilməlidir.

İnkişafetdirici mühitin məzmunu uşağın ehtiyac və maraqlarına cavab verməli və müstəqil fəaliyyət növünün seçilməsinə təkan verməlidir.

***Tərbiyəvi funksiya***

Mühit özü elə bir mərkəzdir ki, orada əməkdaşlıq əlaqələri, müsbət münasibət, mütəşəkkil davranış və qayğıkeş münasibətlər yaradılır.

***İnkişaf funksiyası***

İnkişaf funksiyası fəaliyyətin sadə formalarından mürəkkəbinə qədər inkişafının davamlılığını təmin edən ənənəvi, yeni və qeyri-adi komponentlərinin birləşdirilməsidir. İnkişaf funksiyası göstərir ki, hər bir fəaliyyət mühitin məzmunu, *"Aktual inkişaf zonası"*na uyğun olmalı və uşaq qrupda *"Yaxın inkişaf zonası"*nda olmalıdır.

Əşyavi-inkişaf mühitinə uşağın bilavasitə qavranılması və praktiki fəaliyyətdə istifadə edilməsi mümkün olan hər şey daxildir. O, yanğından mühafizə və sanitar-gigiyenik tələblərə uyğun olmalıdır. Bu gün əşyavi-inkişafetdirici mühit uşaqları təhsil prosesinə cəlb etməli və maksimum psixoloji komfortu təmin etməlidir.

## Tələbələr üçün fəaliyyətlər

1. İnkişafetdirici mühitin xüsusiyyətlərini cədvələ uyğun təsvir edin:

| Çeviklik | Davamlılıq | Variativlik | İnteqrasiya | Açıqlıq |
|---|---|---|---|---|
| | | | | |

2. Ziqzaq təlim texnikasından istifadə edərək verilmiş mətni təhlil edin və fikirlərinizi bölüşdürün.

3. **Kazusların oxunması**: Aşağıda verilən kazusu-problemi araşdırın və müzakirə edin. Şkafda möhtəşəm bir gəlincik dəsti mövcuddur. Bu gəlinciklər zərif və cazibədardır, "Didaktik gəlincik"lərdir, toxunulmazdır, onunla oynamaq olmaz və onlar görüntü üçündür. Uşaqlar oyunda bu kuklalardan istifadə etmirlər. Götürmək istədikdə müəllim onlara "Bu oyuncaqlardan istifadə etmək olmaz. Onlar dərs üçündür!" deyir. O zaman uşaqlar rəfdən köhnə oyuncaqları götürür və onlarla oyuna davam edirlər.
   Göstəriş üçün qrupda oyuncaqların olması doğrudurmu? Niyə?

4. Cədvəli doldurun:

| Öyrədici mühitin komponentləri | Öyrədici mühitin şərtləri | Öyrədici mühitin məzmunu |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |

5. Öyrədici mühitin yaradılması üçün təkliflər hazırlayın.

6. Aşağıdakı sualları müzakirə edin:
   - İnkişafetdirici mühit nədir?
   - İnkişafetdirici mühitin qurulmasının əsas psixoloji əsasları hansılardır?
   - İnkişafetdirici mühitin qurulması üçün əsas pedaqoji əsaslar hansılardır?
   - İnkişafetdirici mühitin qurulması prinsiplərinin məna və məzmununu izah edin.
   - İnkişafetdirici mühitin qurulması üçün hansı parametrlər var?
   - İnkişafetdirici mühitin qurulması texnologiyasının mahiyyəti nədir?

# Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Verilən mövzuya uyğun öyrədici mühitin yaradılması üçün təkliflər hazırlamaq”**

1. Xüsusi şəkildə təşkil edilmiş mühitə aiddir:
    1. Uşağın özünü öyrətmə qabiliyyətinin inkişafına müsbət təsir göstərir;
    2. Stimulyator rolunda çıxış edir;
    3. Şəxsi inkişafı zənginləşdirir;
    4. Müxtəlif qabiliyyətlərin erkən təzahürünə kömək edir;
    5. Oyun materialının dövr dəyişkənliyi uşaqların oyun, hərəki, idrak və tədqiqat fəaliyyətini stimullaşdıran yeni əşyaların yaradılmasıdır.

A) 1, 2, 3, 4;
B) 2, 3, 4, 5;
C) 3, 1, 4, 5.

2. İnkişafetdirici mühitin yaradılmasında tərbiyəçi-müəllimin rolu haqqında esse yazın.

3. Təhsilləndirici mühitin yaradılmasına verilən tələblər haqqında təqdimat hazırlayın.

## 1.2. İnkişafetdirici mühitin dəstəklənməsi üçün mərkəz və ya guşələrin layihələrini hazırlayır

### Guşə layihələrinin hazırlanması

İnkişafetdirici və dəstəkləyici mühitin yaradılması üçün müxtəlif guşələr (fəaliyyət mərkəzləri) təşkil olunur. Bu guşələr inkişaf sahələri üzrə qurulur və uşağın inkişafını təmin edir. Məktəbəqədər qruplarda şərait elə yaradılmalıdır ki, uşağın sərbəst seçim imkanı olsun. Hər yaş qrupunda bir neçə guşə yaradılır və bunların da hər birində tədqiqat və oyunlar üçün kifayət qədər materiallar təqdim olunur. Yaş qruplarından asılı olaraq guşələr müxtəlif olur.

Guşələr aşağıdakı şərtlər nəzərə alınmaqla tərtib olunur:

1. Uşaqların maraq və inkişaf ehtiyacları;
2. Mövcud olan təlim resursları.

Fəaliyyət mərkəzləri (guşələr) (Şəkil 1.3) dedikdə, əsasən, aşağıdakılar nəzərdə tutulur:

- Riyaziyyat guşəsi;
- Kitab guşəsi;
- Stolüstü oyunlar guşəsi;
- Elm guşəsi;
- Təsviri fəaliyyət guşəsi;
- Qum və su guşəsi;
- Tikinti materialları guşəsi;
- Sujetli-rollu oyunlar guşəsi (Şəkil 1.4);
- Məişət-təsərrüfat guşəsi;
- Milli guşə;
- Gəlincik guşəsi;
- Nəqliyyat guşəsi;
- Təbiət guşəsi;
- Əl əməyi (məktəbəhazırlıq qrupunda) guşəsi.



**Şəkil 1.3. Fəaliyyət mərkəzləri**



**Şəkil 1.4. Sujetli-rollu oyunlar guşəsi**

Fəaliyyət mərkəzləri bir-birindən ayrı təşkil edilir və xüsusi materiallarla təchiz olunur. Mərkəzlərdə qoyulan materiallar (kitablar, oyuncaqlar, həndəsi fiqurlar, oyuncaq qablar, mətbəxə aid oyuncaqlar, kağız, qələmlər, karton, boyalar, plastilin, pazllar, müxtəlif bitkilər və yarpaqlar) uşaqların əli çatan yerlərdə qoyulmalı və onlar həmin materiallarla yaradıcı və müstəqil davranmağa həvəsləndirilməlidirlər. Fəaliyyət mərkəzləri (guşələr) elə yaradılmalıdır ki, orada uşaqlar kiçik qruplarda bir-birilə oynayıb ünsiyyət qura və istədikləri fəaliyyət mərkəzlərini özləri seçə bilsinlər. Həm də fəaliyyət mərkəzlərində uşaqlar birgə oynamaq və əməkdaşlıq etməyi öyrənirlər.

Sujetli-rollu oyun guşəsində uşaqlarda real həyatdan götürülmüş səhnələri canlandırmaq arzusunu oyadan kostyumlar və başqa əşyalar olur.

Bu, onların ətrafında baş verənlər və dünyadakı rolunu daha yaxşı başa düşməyə kömək edir. Aşağıdakı cədvəldə bu mövzuda guşələrə aid resursların siyahısı təqdim olunur (Cədvəl 1.1):

| Guşənin mövzusu | Lazım olan resurslar və oyuncaqlar |
|---|---|
| Poçt | Bağlama, məktublarla zərflər, açıqcalar, qəzetlər, jurnallar, teleqramlar, poçtalyon çantası və poçt qutusu. |
| Mağaza | Oyuncaq kassa, çek lenti, oyuncaq pul, paketlər, maketlər, mulyajlar və idman avadanlıqları (Şəkil 1.5). |
| Xəstəxana | Tibb mövzusunda oyuncaqlar (termometr, stetofonendoskop, dərmalar, sarğı və s.) (Şəkil 1.6). |
| Bərbərxana | Güzgü, oyuncaq kosmetika və oyuncaq alətlər (fen, qayçı, daraq və s.). |

**Cədvəl 1.1. Guşə mövzuları və onlara aid resurslar**



**Şəkil 1.5. “Mağaza” süjetli-rollu oyun guşəsi**



**Şəkil 1.6. “Xəstəxana” süjetli-rollu oyun guşəsi**

### Tikinti guşəsi

Tikinti uşağın yaradıcılığı, quraşdırma qabiliyyəti, problemlərinin həll edilməsi riyazi və sosial bacarıqlarının inkişaf etdirilməsinə kömək edir. Uşaqlar bu guşədə yaradıcı yanaşma nümayiş etdirmək və yerinə yetirilən işə diqqət yetirməyi öyrənirlər.

Guşə kifayət qədər mobil ola bilər. Onun praktikliyi ondan ibarətdir ki, istənilən konstruktor istənilən yerə asanlıqla hərəkət etdirilir. Tikinti guşəsinin məzmunu (müxtəlif növ konstruktorlar, kublar, iri və xırda taxta tikinti materialları və tikililərin sxemləri) uşaqlara böyük bir qrup, yarımqrup və fərdi olaraq konstruktiv fəaliyyət təşkil etmək, xalça və ya masada tikinti işlərinə başlamağa imkan verir (Şəkil 1.7).



**Şəkil 1.7. Tikinti guşəsinin nümunəsi**

Tikinti guşəsi elə təşkil olunmalıdır ki, o, uşaqların diqqətini cəlb etsin. Materialın miqdarı uşaqların yaşı ilə müəyyən edilir. Tədris ilinin başlanğıcında bütün materiallar dərhal yayılmamalıdır. Material əlavə edilməli, azaldılmalı və dəyişdirilməlidir. Guşədə oyun zamanı tərbiyəçi-müəllimin rolu uşaqların bir-biri ilə necə qarşılıqlı əlaqədə olduqlarını müşahidə etmək, onları həvəsləndirmək, problemlərini həll etməyə kömək edən suallar vermək, lazımi materiallar əlavə etmək, oyuncaq binalar üçün lövhələr hazırlamaq və uşaqların növbəti günə qədər binalarını saxlamağa icazə verməkdir. Burada müxtəlif bərkidilmə üsulları olan plastik konstruktorlar, yumşaq modullar və konstruktorun müxtəlif növləri olmalıdır. Guşə mövzusu və resursların siyahısı Cədvəl 1.2-də verilmişdir:

| Guşənin mövzusu | Resurslar |
|---|---|
| Konstruktorun müxtəlif növləri | Kiçik (stolüstü) və iri (döşəməüstü) tikinti materialı, leqo və s. (Şəkil 1.8) |
| Maketlər | Evlər |
| Alb mlar | "Müxtəlif növ evlər" və "Müxtəlif növ körpülər" |
| Xarrat və çilingər emalatxanası | Müxtəlif oyuncaq alət və materiallar: Çəkic, boltlar, mismarlar və s. |

**Cədvəl 1.2. Guşə mövzuları və onlara aid resurslar**



**Şəkil 1.8. Tikinti guşəsinin nümunəsi**

### Nəqliyyat guşəsi

Bu guşədə nəqliyyat, tikinti materialları və peşələri əks etdirən müxtəlif ölçülü maşınlar yerləşdirilməlidir. Nəqliyyat guşəsində uşaqlar üçün müxtəlif nəqliyyat vasitələrinin (yerüstü, su və hava) oyuncaq variantları təqdim olunmalıdır. Bu guşədə əlavə olaraq yol hərəkət nişanlarını əks edirən plakatlar və yol işarələrinin maketləri yerləşdirilir (Şəkil 1.9 və Şəkil 1.10).




**Şəkil 1.9. Nəqliyyat guşəsinin nümunəsi**



**Şəkil 1.10. Nəqliyyat guşəsinin nümunəsi**

**Kitab guşəsi** (Şəkil 1.11)



**Şəkil 1.11. Kitab guşəsinin nümunəsi**

Məktəbəqədər yaşlı uşaqlarda bədii ədəbiyyata marağın formalaşdırılması və kitaba qayğıkeş münasibətin tərbiyə edilməsində kitab guşəsi mühüm rol oynayır. Bu guşə sakit, rahat və estetik cəhətdən tərtib edilmiş və xüsusi olaraq ayrılmış bir yerdir. Burada uşaq müstəqil olaraq jurnal və albomları nəzərdən keçirə və zövqünə görə bir kitab seçə və sakitcə baxaraq "Yenidən oxuya" bilər. Kitab guşəsi məktəbəqədər təhsil müəssisəsinin bütün qruplarında təşkil edilməlidir.

Tərbiyəçi-müəllimlərin - kitab guşəsinin təşkili zamanı riayət etməli olduqları əsas prinsip uşaqların müxtəlif ədəbi maraqlarının təmin olunmasıdır. Materialın (ədəbiyyat, rəsm və portret) vaxtaşırı dəyişilməsi və bu yenilənmənin qrupda aparılan tərbiyəvi-təhsil işi ilə əlaqədə olması lazımdır. Məsələn, kitab guşəsində uşaqları öz şəhəri haqqında söhbətə hazırlamaq olar: İllüstrasiya və fotolara baxmaq, albom hazırlamaq və sair.

Kitab guşəsinə dair bir sıra tələblər vardır:

- **Rahat yer** - səs-küyün qarşısının alınması üçün qapılardan uzaq sakit bir yer;
- **İşıqlanma** - uşaqların görmə qabiliyyətinin pozulmaması üçün gündüz və axşam saatlarında yaxşı işıqlandırma və işıq mənbəyinə yaxınlıq (pəncərənin yaxınlığı və axşam saatlarında elektrik işıq mənbəyinin olması);
- **Tərtibatın estetikliyi** - kitab guşəsi bir qədər fərqli üslubda tərtib edilməli və cəlbedici olmalıdır. Divarda şəkillərin reproduksiyaları, böyük qruplar (5-6 yaşlı uşaqlar) üçün isə yazıçıların portretlərini asmaq olar;
- **Yaşa uyğunluq** - kitab guşəsində təşkil olunan ədəbiyyat seçimi uşaqların yaş xüsusiyyətləri və tələbatına uyğun olmalıdır;
- **Rahatlıq** - kitablar, oyun dəstləri, şəkil və illüstrasiyalarla albomlar bütün uşaqlara əl çatan vəziyyətdə saxlanılır;
- **Kiçik qruplarda kitab guşəsi** - bu dərhal təşkil edilmir, çünki uşaqların kitabdan istifadə etmək bacarığı yoxdur və onlar kitabdan bir oyuncaq kimi istifadə edirlər.

Kitab guşəsinə, bir qayda olaraq, uşaqlara artıq tanış olan nəşrlər yerləşdirilir və kitablardan başqa, burada kağıza yapışdırılmış ayrı-ayrı şəkillər və tematik albom ola bilər. Kitablar böyük rəngarəng illüstrasiyalar və kiçik bir mətnlə olmalıdır.

Orta qrupda isə kitab guşəsi ilin əvvəlindən uşaqların iştirakı ilə təşkil edilir. Rəfdə 4-5 kitab olmalı, qalanları isə şkafda saxlanılır. Kitab guşəsində rəsm əsərləri mövzusunda uşaq rəsmlərini nümayiş etdirmək olar.

Böyük və məktəbəhazırlıq qruplarında **kitab guşəsinin məzmunu** uşaqların ədəbi inkişafında dəyişikliklərlə müəyyən edilir.

Kitab rəfində müxtəlif 10-12 kitab yer tapa bilər:

- Bütün məktəbəqədər uşaqların nağıllara xüsusi, daimi və üstün marağı nəzərə alınaraq 2-3 nağıl əsəri kitab guşəsinə mütləq yerləşdirilir;
- Kitab guşəsində uşağın şəxsiyyətinin inkişafına yönəldilmiş, yaşadığı ölkənin tarixi və onun bugünkü həyatı ilə tanış edilən şeir və hekayələr daim olmalıdır;
- Həmçinin təbiət həyatı, heyvanlar və bitkilər haqqında 2-3 kitab olmalıdır. Təbiət haqqında kitabların illüstrasiyalarını nəzərdən keçirərkən uşaq təbii olaraq təbiət dünyasına daxil olur və onun şeir nümunələrini daha yaxşı bilir;
- Kitab rəfində hal-hazırda uşaqların məşğələlərdə tanış olduqları əsərlərin nəşri olmalıdır;
- Kitabın nəzərdən keçirilməsi uşağa oxuduqlarını yenidən yaşamaq və öz ilkin təsəvvürlərini dərinləşdirməyə imkan verir;
- Uşaqlar yumoristik kitablarda məzəli şəkillərə baxmaqdan xüsusi zövq alırlar;
- Guşədə bəzən uşaqların evdən gətirdikləri maraqlı və yaxşı təsvir edilmiş kitablar, həmçinin "Qalın" kitabları yerləşdirmək olar.

Kitabın guşədə qalma müddəti uşaqların bu kitaba olan marağı ilə müəyyən edilir. Orta hesabla isə onun orada qalma müddəti 2-2.5 həftədir. Əgər kitaba maraq itmişdirsə, onu nəzərdə tutulmuş müddəti gözləmədən rəflərdən götürmək olar.

Tərbiyəçi-müəllimin oxuması və danışması ilə yanaşı, kitab, kitab sərgilərinin təşkili, yazıçı və rəssamlar haqqında söhbətlər və ədəbi səhnəciklər kimi iş formalarından istifadə olunur.

Böyük qruplarda kitab guşəsində tematik kitab sərgiləri təşkil oluna bilər. Onların əsas məqsədi uşaqların ədəbi maraqlarını dərinləşdirmək və məktəbəqədər uşaqlar üçün xüsusilə əhəmiyyətli və aktual ədəbi bir mövzu yaratmaqdır.

Onun hazırlanmasında uşaq və ayrı-ayrı valideynlər iştirak edirlər. Kitabların seçimi ciddi olmalıdır (bədii tərtibat, bir kitabın müxtəlif nəşrləri, xarici görünüşü və s.). Sərgi üç gündən artıq davam edə bilməz, çünki uşaqların ona marağı sürətlə azalır.

Nəticədə, uşaqlarda bədii zövq formalaşır, dünyagörüşü genişlənir, ədəbi əsərin qavranılması dərinləşir və yaradıcılıq qabiliyyəti inkişaf edir.

Uşaqlara özünəməxsus kitablar hazırlamaq, süjetlər uydurmaq və ifa etmək, hekayələri dinləməyi təklif edirlər.

Tərbiyəçi-müəllim uşaqların maraqları, sevimli məşğuliyyəti və nağıllarını müəyyən etməlidir. Rəngarəng və müvafiq yaşa uyğun ədəbiyyat seçmək lazımdır.

Tərbiyəçi-müəllim uşaqların hekayələrini yazır və onlara kitab seçimində kömək edir. Bundan əlavə, tərbiyəçi-müəllim uşağın tərəqqisi barədə qeydlər aparır. Bu guşədə nağıllar, hekayələr və şeirlər yerləşdirilir. Aşağıdakı Cədvəl 1.3-də bu mövzuda guşələrə aid resursların siyahısı təqdim olunur:

| Guşənin məzmunu | Resurslar |
|---|---|
| Albomlar | Yazıçıların portretləri, şairlər və uşaq kitablarını tərtib edən rəssamlar |

| | |
|---|---|
| Bədii ədəbiyyat (Şəkil 1.12) | Nağıllar, hekayələr, povest, şeirlər, yanıltmaclar, tapmacalar və saymacalar |
| Şəxsi təcrübədən hekayələri olan uşaqlar tərəfindən yaradılan kitabla | "Böyük dost", "Sehrli çiçək və alma haqqında" və s. nağıllar |
| Məktub və kassa | Əlifba |
| Resurslar | Karandaş və rəngli vərəqlər |

**Cədvəl 1.3. Guşənin məzmunu və resursların siyahısı**

### Təsviri fəaliyyət guşəsi

Təsviri fəaliyyət məktəbəqədər yaşlı uşaqlar üçün ən maraqlı fəaliyyətlərdən biridir və müsbət emosiyalara səbəb olur (Şəkil 1.13).

Təsviri fəaliyyət guşəsi uşaqların ətraf gerçəkliyin estetik tərəfinə marağının formalaşdırılması və onların özünüifadə tələbatının ödənilməsini yerinə yetirir. Burada uşaqlar asudə vaxtlarında rəsm çəkir, heykəlciklər hazırlayır və aplikasiya işlərini yerinə yetirirlər.

*Mərkəzin vəzifələri:*

- Bədii-təsviri fəaliyyət prosesində emosional münasibət və parlaq ifadəli obrazlar yaratmaq arzusunu tərbiyə etmək (Şəkil 1.14);
- Rənglərlə müstəqil eksperiment aparmaq arzusunu formalaşdırmaq (rənglərin qarışması və çalarların alınması), materiallarla (plastilin, gil və xəmir) işləmə vərdişlərini öyrətmək;
- Materialın rəngini seçmək və dəyişdirmək bacarığını inkişaf etdirmək;
- Əl barmaqlarının kiçik əzələ və motorikasını (plastilin, gil və şablonlarla iş zamanı) formalaşdırmaq;
- Zəruri mədəni-gigiyenik bacarıqları formalaşdırmaq, təsviri fəaliyyətlə məşğul olduqdan sonra əlləri müstəqil və düzgün yumaq bacarığı;
- Qələmlər, fırçalar və s. ilə hərəkət edərkən təhlükəsiz davranış haqqında



**Şəkil 1.12. Kitab guşəsinin nümunəsi**



**Şəkil 1.13. Təsviri fəaliyyət guşəsinin nümunəsi**



**Şəkil 1.14. Təsviri fəaliyyət guşəsi**

fikirlər yaratmaq;
- Alət və materiallara diqqətli münasibət bəsləmək və onlardan təyinatı üzrə istifadə etmək və yerinə qoymaq.

***Təsviri fəaliyyət*** guşəsi uşaqların ətraf gerçəkliyin estetik tərəfinə marağının formalaşdırılması və onların özünüifadə tələbatının ödənilməsi vəzifəsini yerinə yetirir.

Burada uşaqlar asudə vaxtlarında rəsm çəkir, gildən müxtəlif əşyalar düzəldir və kəsib yapışdırma işlərini yerinə yetirirlər.

Adətən, balacaların sərəncamında müxtəlif təsviri materiallar olur: Karandaşlar, sulu boya, quaş, kağız, müxtəlif faktura, ölçü və rəng, karton və didaktik oyunlar. Burada xalq bədii sənətkarlıq nümunələri (gözəllik rəfi) ilə kiçik bir sərgi üçün yer də olur. Guşədə xalq tətbiqi sənəti nümunələri olan albomlar və tanınmış rəssamların illüstrasiyaları olmalıdır. Uşaq işləri (rəsm, əl işi və kollajlar) sərbəst girişi olan xüsusi stenddə hamının gözü qarşısında sərgilənir.

Təsviri fəaliyyət üçün resurslar aşağıda verilir (Cədvəl 1.4):

| Guşənin məzmunu | Resurslar |
|---|---|
| Rəsm reproduksiyası | Mənzərə, natürmortlar, portretlər, şəkillər və rəsmlər |
| Trafaretlər | Qızlar və oğlanlar üçün müxtəlif mövzularda siluetlər |
| Rəsm, gil və kəsib yapışdırma | Kağız, karton, trafaretlər, boyalar, fırçalar, yapışqan, karandaşlar, salfetlər, boyayıcı səhifələr, gil, plastilin, mum, akvarel, tabaşirlər, rəngli təbaşir və flomasterlər |

**Cədvəl 1.4. Guşənin məzmunu və resursların siyahısı**

*Lazım olan ləvazimatlar:*
- Mum, akvarel və rəngli təbaşirlər;
- Flomaster;
- Quaş, akvarel və barmaq boyaları;
- Fırçalar;
- Su üçün qablar;
- Rəngli karandaşlar;
- Plastilin və gil üçün taxta;
- Gil və xəmir;
- Salfetlər;
- Çubuqlar, borular, klişe, köpük, süngər və trafaretlər;
- Rəngli və ağ kağız, karton, yapışkanlı etiket, etiket və parçalar;
- Küt uclu qayçı;
- Təbaşirlə rəsm çəkmək üçün kiçik lövhələr;
- Rəsm lövhəsi;
- Təmizlik avadanlığı.

*Didaktik materiallar:*

- Nümunələri ilə rəngləmələr (“Raskraska”), mövzulu rəngləmələr;
- Rəsm reproduksiyası;
- Uşaq kitab rəssamlarının reproduksiyası;
- İlin müxtəlif fəsillərində heyvanlar və təbiətin illüstrasiyaları.

**Təbiət guşəsi**

Təbiət guşəsi qrup otağının bəzəyi olacaq və uşaqlara müşahidə və eksperimental fəaliyyət göstərməyə imkan verəcək. Bundan əlavə, məktəbəqədər yaşlı uşaqlara məsuliyyət və qayğı kimi hisslər aşılanır, çünki uşaqlar bitkilərə qayğı göstərməyi öyrənirlər (Şəkil 1.15). Təbiət guşəsinin aşağıdakı kimi əhəmiyyətləri vardır:



**Şəkil 1.15. Təbiət guşəsi**

- *İdrakın inkişafı* - təbiət haqqında uşaqların bilikləri genişlənir, onun dərketməsinə maraq və yenisini öyrənməyə həvəs yaranır, zəka, məntiqi təfəkkür, diqqət və müşahidə inkişaf edir;
- *Ekoloji-estetik məna* - təbiətə sevgi və estetik zövq formalaşır, yaradıcı təxəyyül inkişaf edir;
- *Tərbiyəvi əhəmiyyət* - təbiətə mənəvi münasibət(qayğıkeş münasibət, canlılara qayğı, əməyə hörmət, vətənpərvərlik hissi, təbiətə məhəbbət) və müsbət emosional keyfiyyət formalaşır;
- *Praktiki əhəmiyyəti* - təbiət guşəsinin sakinləri üçün qulluq üzrə əmək vərdişləri, əməksevərlik və tapşırılan işə görə məsuliyyət və təşəbbüskarlıq kimi keyfiyyətlərin əldə edilməsi;
- *Sağlamlığın əhəmiyyəti* - bitkilər otağın mikroiqlimini bərpa edir, havanı nəmləndirir, oksigen ilə təmizləyir və zənginləşdirir, müalicəvi bitkilər isə müalicəvi məqsədlər üçün istifadə olunur.

Məktəbəqədər təhsil müəssisəsinin hər bir qrupunun öz təbiət guşəsi var. Obyektlərin seçilməsi və təbiət guşəsinə yerləşdirilməsi yaşa uyğun olaraq həyata keçirilir. Uşaq bağçasında təbiətin bütün sakinləri daimi və müvəqqəti olaraq bölünə bilər.

***Orta qrupda*** – böyük çiçəkli bitkilər yerləşdirilir. Tərbiyəçi-müəllim uşaqları otaq bitkiləri ilə tanış edir və onlara qayğı göstərmək üçün qaydaları başa salır. Uşaqlar 2-3 bitkinin adını bilməlidirlər.

***Böyük qrupda*** - guşə müxtəlif forma və yarpaqların böyüklüyünə malik bitkilərlə doldurulur. Təbiət guşəsinə 5-6 bitki növü yerləşdirilir. Uşaqlar 4-5 bitkinin adını bilməlidirlər. Tərbiyəçi-müəllim öz növbəsində bitkilərin necə suvarılacağını uşaqlara göstərir.

**Məktəbəhazırlıq qrupunda** - bitkilərin böyüməsi və inkişafının müşahidəsi işin əsas məzmunu olur.

Uşaqlar bitkinin böyüməsi üçün lazım olan şərtləri (işıq, nəm, istilik və torpaq qidası) öyrənir. Məktəbəhazırlıq qrupunun təbiət guşəsi 6-7 növ bitki ilə təchiz edilməlidir.

### Hava təqvimi

Məktəbəqədər təhsil müəssisəsinin hər bir qrupunda hava təqviminə sahib olmaq tövsiyə olunur. Təqvimdə hava qeyd edilərkən uşaqlar təbiətdə müşahidələr zamanı əldə edilən bilikləri möhkəmləndirirlər (Şəkil 1.16).




**Şəkil 1.16. Hava təqvimi**

Təbiət guşəsində əlavə olaraq aşağıdakılar olmalıdır:

- Təbii tərəvəz,meyvə və ya onların mulyajı;
- Heyvan, quş, həşərat və digər canlıların şəkil dəstləri və təsvir olunduğu illüstrasiyalarla kitabçalar;
- İlin fəsillərini əks etdirən albomlar;
- Təbiət haqqında uşaq rəsmləri və təbii materialdan hazırlanmış əl işləri;
- Əmək alətləri.

Böyük qrup uşaqlarının iştirakı ilə təbiət guşəsində **n**övbətçilik təşkil olunur (Şəkil 1.17).



**Şəkil 1.17. Təbiət guşəsində növbətçilik**

Tərbiyəçi-müəllimlərin müxtəlif qayğı üsullarını tələb edən bitkiləri seçmək, yerləşdirmək və əmək fəaliyyəti üçün lazımi avadanlıqları təbiətin bir küncündə hazırlamaq lazımdır: Önlüklər, suvarma alətləri, təcrübə üçün çubuqlar və pulverizatorlar.

Təbii guşədə təbii materialdan uşaq əl işləri yerinə yetirilməli, təbiət eksponatları və ikebanlar rəflərdə harmonik şəkildə yerləşdirilməlidir.

### Elm guşəsi

Uşaqlar doğulandan tədqiqatçıdır və ətraf mühit barəsində düşüncələri formalaşdıran fəal məlumat toplayırlar. Onlar müşahidə və təcrübə vasitəsilə dünyanı başa düşməyə çalışırlar. Uşaqların təbii həvəsi idrak fəaliyyətinə keçir. Təbiət guşəsi ilə birləşdirilə bilən elm güşəsi (idrak və tədqiqat fəaliyyəti mərkəzi) daim populyardır. Bu guşənin vəzifəsi uşaqların idrak-tədqiqat fəaliyyətinin inkişaf etdirilməsi və ətraf aləm haqqında təsəvvürlərin zənginləşdirilməsidir ki, bu da son nəticədə uşağın uğurlu intellektual və şəxsi inkişafını təmin edəcəkdir (Şəkil 1.18).

Bu mərkəz vasitəsi ilə aşağıdakılar təmin olunur:

- Obyekt və hadisələrin fiziki keyfiyyətləri haqqında təsəvvürlərin inkişafı;
- Barmaqların toxunma həssaslığının inkişafı;
- Elementar riyazi təsəvvürlərin formalaşdırılması;
- Əşyaların forması, ölçüsü, həcmi, miqdarı, vaxtı, səbəbi və nəticəsi haqqında təsəvvürlərin formalaşdırılması;
- Müxtəlif rənglər, dad və qoxuların qavrayışının inkişafı;
- Danışma və digər ünsiyyət bacarıqlarının inkişafı;
- Düşünmək, müqayisə etmək, suallar vermək və öz nəticələrini çıxarmaq bacarığı;
- Uşaqların emosional təcrübələrinin zənginləşdirilməsi;
- Uşaqların sosial prosesin inkişafında qarşılıqlı təsirlərinin təmin edilməsi.

Elm guşəsində (Şəkil 1.18) olan bütün materiallar təhlükəsizlik tələblərinə cavab verir, uşaqlar üçün açıq və hər şey estetik şəkildə tərtib olunur. Elm guşəsi bir neçə mini-blokdan ibarətdir: Mini-laboratoriya; təbiət guşəsi və metodik guşə və s.



Şəkil 1.18. Elm guşəsinin nümunələri

Uşaqlara ən güclü tərbiyə təsiri bütün dünyadakı insanlar və obyektləri təsvir edən oyuncaqlardır: heyvanlar, quşlar, balıqlar, bitkilər, nəqliyyat vasitələri, avadanlıqlar, ev əşyaları və s. Onlarla məktəbəqədər uşaqlarda müəyyən təsəvvürlər assosiasiya olunur, onların yaddaşında parlaq təəssüratlar canlanır və mövcud həyat təcrübəsini yaradıcı şəkildə təkrar etmək imkanı yaradılır. Oyuncaqlar yalnız uşaqları müxtəlif məzmunlu oyunlara həvəsləndirmir, onlar uşağa rol oynamaq, sevimli obraz yaratmaq və uydurmanı həyata keçirməyə kömək edir. Oyuncaq oyun obrazının yaradılmasına böyük təsir göstərir.

Uşaq inkişaf etdikcə onun oyuncaqlara qarşı münasibəti dəyişir. O, öz niyyətini həyata keçirməkdə ona kömək edəcək oyuncaqlar seçməyə başlayır. Ancaq oyuncaq yalnız o halda uşağın niyyətinin həyata keçirilməsi vasitəsi ola bilər ki, o, əşyanın obrazını düzgün qəbul edir, onun əşya haqqında bilikləri olur və bu da maraq və oynamaq arzusuna səbəb olur. Oyuncaq oyun üçün nəzərdə tutulmuş obyektdir (əşya). Real və xəyali əşyalar və obrazları quraraq oyuncaq əqli, əxlaqi, estetik və fiziki tərbiyə məqsədlərinə xidmət edir. Oyuncaq uşağa ətraf dünyanı öyrənməyə kömək edir, onu məqsədyönlü və mənalı fəaliyyətə alışdırır. Təfəkkür, yaddaş, nitq və emosiyaların inkişafına imkan yaradır. Oyuncaqdan uşaqların təlim-tərbiyə işində, xüsusilə də texniki və bədii yaradıcılığın inkişafı üçün geniş istifadə olunur. Oyuncağın tipləri, xarakteri, məzmunu və tərtibatı uşaqların yaşına uyğun olaraq onların inkişafı və maraqları nəzərə alınmaqla xüsusi tərbiyəvi vəzifələr ilə müəyyən edilir.

Oyuncaq uşaqların əməyə marağını artırılması və maraq hissinin formalaşdırılmasına kömək edir.

Böyüklərin əsas vəzifəsi uşağa oyuncaqlarla hərəkət etməyi öyrətməkdir.

Məktəbəqədər yaşda uşağın inkişafı üçün oyunlar və oyuncaqların əhəmiyyəti tərbiyəçi-müəllimlər tərəfindən lazımi qədər dəyərləndirilmir.

Valideynlərin əksəriyyəti uşağın şəxsiyyətinin formalaşdırılması üçün düzgün seçilmiş oyuncaqların nə qədər vacib olduğunu anlamırlar. Uşaq necə və hansı oyunları oynamalıdır? Bu barədə valideynlər, əsasən, istehsalçı firmaların maraqlarını əks etdirən və heç də həmişə uşağın maraqlarına uyğun gəlməyən reklamdan məlumat alırlar.

**Oyuncağın rolu**

Oyuncağın rolu çoxfunksiyalıdır:

1. Uşağın psixi inkişaf vasitəsidir;
2. İctimai münasibətlərin müasir sistemində həyata hazırlamaq vasitəsidir;
3. Əyləncə üçün xidmət edən obyektdir.

Oyuncaq yalnız oyunun müşayiəti deyil, həm də təlim, əyləncə və hətta müalicə vasitəsidir (oyuncağın psixoterapevtik funksiyası). O, uşağa öz qorxularına sahib olmağa kömək edir.

Uşaq üçün oyuncaq nə olmalıdır? Hər şeydən əvvəl, oyuncaq sevinc və oyun üçün motivasiya mənbəyidir. O, inkişaf üçün şərait və müstəqil yaradıcılığa imkan yaratmalıdır. Faydalı oyuncaq özündə təhsil vəzifəsini daşıyır. Oyuncaq uşağın ruhunda xeyir və şərin ilkin anlayışına təməl qoyur.

Pedaqoji baxımdan daha dəyərli oyuncaqlar aşağıdakı keyfiyyətlərə malik olanlardır:

- Polifunksionallıq – oyuncaqlardan uşağın niyyəti və müxtəlif funksiyalarda oyunun sahəsinə uyğun olaraq çevik şəkildə istifadə edilə bilər. Beləliklə, oyuncaq yaradıcılıq, təxəyyül və simvolik düşüncə funksiyasının inkişafına kömək edir;
- Birgə fəaliyyətlərdə tətbiq etmək imkanı – oyuncaq bir qrup uşaq tərəfindən eyni zamanda istifadə üçün yararlı olmalı (oynayan tərəfdaş kimi böyüklərin iştirakı ilə) və birgə hərəkətlərə təşəbbüs etməlidir (kollektiv binalar, birgə oyunlar və digərləri);
- Didaktik xüsusiyyətləri olan oyuncaqlar - layihələndirmə, rəng və forma ilə tanış olma bacarıqlarını formalaşdırır. Məsələn, bəzi elektron oyun və oyuncaqlar proqramlaşdırılmış nəzarət mexanizmlərini özündə saxlaya bilir, uşaqların lazım olan istiqamətə yönləndirilməsi və biliklərinin əldə edilməsi xüsusiyyətlərinə malik olur;
- Bədii sənətkarlığa aid oyuncaqlar – bu oyuncaqlar uşağın bədii-estetik inkişafını formalaşdırır, onu incəsənət aləminə cəlb edir və bədii xalq yaradıcılığı ilə tanış edir. Bu cür oyuncaqlar yaş həddi və onların tətbiqi sahələrinə aid təlimatlar və metodiki tövsiyələrin mövcudluğu şəraitində uşağa müsbət təsir göstərir.

Oyuncaqlar sevinc mənbəyi, canlı oyun üçün motivasiya, inkişaf etməkdə olan həyatın bütün instinktlərinin təzahürü üçün obyekt olmalıdır.

**Müxtəlif yaş qrupları üçün oyuncaqların seçilməsi**

Oyuncaq seçilərkən uşağın yaşı, oyuncağın tematik məqsədi və materialı nəzərə alınmalıdır.

Oyuncaqları təhlil etsək, onları müxtəlif meyarlara görə qruplara bölə bilərik.

**Uşağın yaşına görə:** körpə, orta, böyük və məktəbəhazırlıq qrupu;

**Tematik məqsədinə görə:** kuklalar, aksesuarlar və evlər: Kublar, inşaat materialları, mozaika, bulmacalar, əlavələr, yumşaq oyuncaqlar, heyvan fiqurları, mətbəx əşyaları, yeməklər, telefon, elektron və musiqi oyuncaqlar, nömrələr, hərflər, stolüstü oyunlar və s..

**Materialına görə:** Plastik, taxta və parça metallardan.

Oyuncaqlar həm də fakturasına görə kobud, hamar və rənglərə görə təsnif edilə bilər. Buna görə də müxtəlif yaşlı uşaqlar, xüsusilə də, kiçik yaşlı uşaqlar üçün oyuncaqların düzgün seçilməsi vacibdir.

Körpələr qrupunda təhsilin əsas vəzifələri aşağıdakılardır:

- Uşaq sağlamlığının qorunması və möhkəmləndirilməsi;
- Hərəkətlərin inkişafı;
- Əşyalarla hərəkətlərin inkişafı;
- Nitqin inkişafı.

**Aşağıda verilən keyfiyyətə müvafiq oyuncaqlar seçilməlidir:**

- İti küncləri, ağır çəkisi olmayan və təhlükəsiz oyuncaqlar;

- Diyirlətmək və atmaq üçün böyük toplar;
- Müxtəlif rəngli yük maşınları, arabalar - uşaqlar onları yerdən yerə köçürür və üzərinə kubik, gəlincik və digər daha kiçik oyuncaqları yığaraq sürürlər;
- Matryoshka(?) və piramidalar (Şəkil 2.5) - sensor inkişaf üçün oyuncaqlar uşağa müxtəlif cisimlər, onların xarakterik xüsusiyyətləri, rəngləri, forma və ölçüsü haqqında aydın təsəvvürlərin formalaşdırılmasına xidmət edir (Şəkil 2.6);



**Şəkil 2.5. Piramidalar**

- Süjet-obrazlı (Şəkil 2.7) oyuncaqlar, gəlinciklər (Şəkil 2.8), heyvanlar və məişət əşyaları - məzmuna görə uşaqlara ətraf aləmi əks etdirir (Şəkil 2.9);



**Şəkil 2.6. Senso-motor inkişaf üçün oyuncaqlar**



**Şəkil 2.7. Sujetli-rollu oyuncaqlar**



**Şəkil 2.8. Gəlinciklər**




**Şəkil 2.9. Meyvə oyuncaqları**

- Əyləncəli oyuncaqlar - bu oyuncaqların olması mütləqdir. Körpə uşaqlar onları oynada bilməsə də, oyuncaqların tərbiyəçi-müəllim tərəfdən istifədə edilməsinə baxır və sevinirlər;
- Tikinti materialları- taxta və ya plastik kubiklər, kərpiclər, leqo və sair (Şəkil 2.10 və Şəkil 2.11);
- Musiqi oyuncaqları - tütək, dodaq akkordeonu, nağara və sair..



Şəkil 2.10. Tikinti materialları oyuncağı



Şəkil 2.11. Leqo oyuncağı

Orta qrupda təhsilin vəzifələri mürəkkəbləşdirilir. Məktəbəqədər yaşlı uşaqlar oyunda rolları daha aydın şəkildə fərqləndirirlər. Beləliklə, oyuncaqların seçilməsi çətinləşdirilir:

- Süjet-obrazlı oyuncaqların seçimi daha geniş olur (kuklalar-qızlar və kuklalar-oğlanlar, müxtəlif millətlərin kuklaları, onlara əlavə əşyalar: dənizçinin papağı, həkim xələti və s.);
- Tikinti materiallarının seçimi daha geniş olur, çünki uşaqlar artıq daha mürəkkəb konstruksiyalar yaradırlar (müxtəlif dəstlərdə olmalıdır);
- Musiqili, səsli oyuncaqların seçimi mürəkkəbdir (uşaq pianosu, nağara) (Şəkil 2.12);



Şəkil 2.12. Musiqi səsli oyuncaqlar

- Komplekt (dəst) oyuncaqlar lazımdır, çünki uşaqlar artıq kollektiv oynaya bilirlər (məsələn,"Ev heyvanları" üçün dam qurmaq).

Böyük qrup uşaqları həyatla daha geniş təmasda olur. Onlar artıq mürəkkəb süjetlərin inkişafına imkan verən oyuncaqlardan istifadə edə bilirlər. Buna görə də, bu yaş qruplarında hər cür oyuncaq müxtəlif çeşiddə təqdim edilməlidir. Texniki, idman-motor və teatr oyuncaqları böyük əhəmiyyət kəsb edir.

Buna görə də əminliklə demək olar ki, oyuncaqların düzgün seçimi uşağın yaş imkanlarına uyğun şəkildə inkişaf etməsinə kömək edir.

Yaş xüsusiyyətlərinə görə uşaq oyuncağının seçilməsi əsas şərtlərdən biridir. Həyatının bu və ya digər dövründə uşaq ətraf aləmi müxtəlif yollarla tanıyır. Yeni biliklərin əldə edilməsi prosesinin darıxdırıcı və monoton olmaması üçün valideyn və qohumlar uşağa oyuncaqlar alır.

Bununla birlikdə oyuncaq uşağı maraqlandıracaq və uşağı öyrənməyə həvəsləndirəcək şəkildə seçilməlidir.

Düzgün oyuncağın seçilməsinin bir çox yolu vardır. Çox vaxt uşaqlar hansı oyuna ehtiyac duyduqlarını özləri bilirlər. Doğrudur, həmişə bu qərar şüurlu şəkildə verilmir və uşaqlar oyuncaq seçimində valideynlərin köməyindən istifadə edirlər. Əlbəttə, hər bir uşaq özünəməxsus şəxsdir və o, hər hansı bir çərçivəyə uyğunlaşmaq məcburiyyətində deyil. Erkən yaşlarda inkişaf çox sürətlə gedir, bu da oyun materialı, o cümlədən vəzifələr, metodlar və təhsil vasitələrinin dəyişikliyinə səbəb olur.

Körpə həyatının ilk aylarında alınan oyuncaqlar görmə və eşitmənin inkişafına kömək etməlidir. Həmin oyuncaqlar parlaq, iri, yüngül top, kürə və böyük şəkildə ola bilər (çarpayının üstündə körpənin gözündən 50 sm. məsafədə asılmalıdır).

2-2,5 aydan böyük süjetli oyuncaqlar (kukla və ayı) əlavə edilir, onlar çarpayı və manejin yanına qoyulur. Eyni zamanda, səsli oyuncaqlar da (zınqırov və s.) lazımdır. Oyuncağın səsləndirilməsi körpənin gözündə ona əlavə cazibədarlıq verir. Bundan başqa, uşağın sinəsinin üstündə əllə tutula bilən xırda oyuncaqlar asılır.

5-6 ayından başlayaraq əşyalarla hərəkət etmək üçün uşağa müxtəlif oyuncaqlar verilir: plastik, rezin, taxta, səsli oyuncaqlar, müxtəlif ölçülü toplar və s.. Oyuncaqların ölçüsü kiçik, orta və yığcam ola bilər. Onlar bir və ya iki əlində tutmaq üçün əlverişli olmalıdır.

**0-1 yaşlı uşaqlar** - bir çox fikrə zidd olaraq bu yaş uşaqlar üçün oyuncaqların əhəmiyyəti həddindən artıq böyükdür. Onlar müxtəlif rəngli, formalı və səsli olmalıdır. Uşaq yatağının üzərindən asılmış oyuncaqlar çox vacibdir. Bu oyuncaqlar görmə və barmaq motoru bacarıqlarını inkişaf etdirir. Körpə rəngləri ayırmağı və səbəb-nəticə əlaqələrini öyrənir. Yuxudan əvvəl körpəyə oxumaq üçün müvafiq kitablar, körpə yatanda isə qucağında saxlaya biləcəyi yumşaq oyuncaqların (ayı, dovşan, gəlincik və s.) olması zəruridir. Su prosedurları zamanı oynamaq üçün rezin ördək balası oyuncağı və ya rəngli böyük topdan istifadə etmək olar. Nəzərə almaq lazımdır ki, çox kiçik hissədən ibarət oyuncaqlar bu yaş uşaqlar üçün təhlükəlidir.

Həyatın ikinci ilində uşağa bütün növ oyuncaqlar təklif olunur. Bu zaman obrazlı oyuncaqlardan daha çox istifadə olunur. Müxtəlif materiallardan hazırlanmış kuklalar və su oyunları üçün kuklalar da bura daxildir. Kuklaların geyimi sadə (çıxarıla bilən və ya çıxarılmayan), kukla mebeli isə böyük ölçülü və möhkəm olmalıdır.

Oyun məişətinin vacib əşyaları:

- Mətbəx üçün dəst (iri və uşağın əlinin ölçüsünə görə qab-qacaq: boşqablar, fincanlar, qaşıqlar və qazanlar);
- Oyuncaq yataq dəstləri (yorğan üzləri, döşəklər, ədyal və s.);
- Səsli və səslənməyən müxtəlif materiallardan hazırlanmış heyvan fiqurları (dovşan, tülkü, inək, keçi, at və s.);
- Su oyunları üçün balıq və su quşları (kiçik və orta ölçülü);
- Süjetli-nəqliyyat oyuncaqları: kuklalar, çarxlar, arabalar və avtomobillər.

**1-3 yaşlı uşaqlar -** bu yaş aralığına daxil olan uşaqlar çox hərəkətli olur və buna görə hərəkətli oyuncaqları xoşlayırlar. Bu yaş uşaqlar üçün mükəmməl oyuncaq seçimi kiçik

arabalar, gəlinciklər üçün arabalar, simli və ya təkərli oyuncaqlardır. Barmaq motoru bacarıqlarının inkişafı üçün rəngli qələmlər, albom və təbaşir məqsədəmüvafiqdir. 1-3 yaş uşağın valideynləri təqlid etdiyi yaşdır, buna görə də uşağa oyuncaq telefon və s. vermək olar.

**3-5 yaşlı uşaqlar -** əqli qabiliyyətləri inkişaf edir, buna görə də çox pazllar, böyük maşınlar və bir çox geyim dəsti olan kuklalar alınmalıdır.

**Oyuncaqların saxlanılması**

Məktəbəqədər müəssisələrdə oyuncaqlar müvafiq şəkildə yerləşdirilməlidir ki, bu da müəyyən oyun avadanlıqlarının istifadəsini tələb edir: şkaflar, çarxlar top saxlamaq üçün torlar və s.

Tələblərin ödənilməsi üçün açıq rəflərin istifadəsi məqsədəuyğundur. Rəflər elə yerləşdirilməlidir ki, uşaqlar asanlıqla və kiminsə köməyi olmadan oyuncaqları götürüb qoya bilsinlər. Hər bir oyuncağın öz daimi yeri olmalıdır. Böyük tikinti materialları üçün aşağı rəflərdən istifadə etmək daha məqsədəuyğun, süjet-obrazlı oyuncaqlar və stolüstü çap oyunları üçün yuxarı rəflər daha uyğundur. Oyuncaqların yerləşdirilməsini gözdən keçirərək bəzi oyuncaqların digərləri ilə örtülməməsini təmin etmək lazımdır.

Oyuncaqları hazırlamaq və onları təmizləmək üçün sərf olunan vaxt da əhəmiyyətli rol oynayır. Didaktik və süjet-obrazlı oyuncaqları qutu və xırda səbətlərə qoymaq daha əlverişlidir, çünki bu halda uşaqlar asanlıqla oyuncaqları masalar və ya oyun yerlərinə apara, oyun bitəndən sonra yığa bilirlər. Bununla yanaşı, bu üsul uşaqlarda oyuncaqlara qayğıkeş münasibət, hərəkətlərin mütəşəkilliyi və qayda-qanun hissi aşılayır.

Musiqi oyuncaqlarının səsləndirilməsinin keyfiyyətini qorunmaq üçün şüşəli dolablara yerləşdirilməsi daha yaxşıdır. Didaktik oyuncaqlar xüsusi şkafda saxlanılır.

Oyuncaqların yerləşdirilməsi yalnız məqsədəuyğun deyil, həm də cəlbedici olmalıdır. Süjet-obrazlı oyuncaq-kuklalar, heyvan və ev heyvanlarını sanki özlərinə çağırır və uşaqları gözləyir.

Oyuncaqların saxlanma qaydası müəyyən dərəcədə daimi olmalıdır, yəni dəyişikliyə yol verməlidir. Uşaqlar, xüsusilə də böyük məktəbəqədər yaşlı uşaqlar zaman-zaman oyuncaqların yerləşdirilməsinin estetik olması və qrupun ümumi tərtibatının pozulmaması üçün onlardan rahat istifadə etməyin müzakirəsinə cəlb olunurlar. Oyundan sonra səliqə-səhman yaradılmalıdır. Uşaqlara oyuncaqları qaydasında qoymağı öyrətmək erkən yaşlarından ağıllı, qənaətcillik, mütəşəkillik, səliqəlilik və ətrafındakıların əməyinə hörmət tərbiyə etmək deməkdir.

**Oyuncaqların seçilməsi qaydaları:**

- Oyuncaq siz və körpənizi sevindirməli, müsbət emosiyalara səbəb olmalıdır;
- Oyuncaq uşağı yormamalı və həddən artıq yükləməməlidir;
- Oyuncaq uşağın inkişafının fərdi xüsusiyyətləri və oyunda onun tələbatına cavab verməlidir;
- Oyuncaq maraq doğuran oyun dinamikasına malik olmalı və uşağı fəal hərəkətə həvəsləndirməlidir;

- Oyuncaq uşağın dünyagörüşünü genişləndirməli və uşağı idrak-tədqiqat fəaliyyətinə sövq etməlidir.

Oyuncaq uşağın zehni inkişafında vacib amildir. Oyuncaqlar estetik zövqü təmin etməli və inkişaf etdirməlidir. Buna görə də uşağın kollektiv səylərə həvəsini artırmalı və təşviq etməlidir.

Şübhəsiz ki, bütün oyuncaqlar gigiyena tələblərinə cavab verməlidir.

**Oyuncaqların keyfiyyətinin qiymətləndirilməsi**

Oyuncağı alarkən biz onun uşağa nə öyrədəcəyi barədə fikirləşirik? Onda hansı hisslər yaranacaq? Qorxmurmu? Uşaq böyüdükcə oyuncaq haqqında onun hansı xatirələri qalacaq?

Unutmamalıyıq ki, oyuncaq uşağa nəyisə öyrətməli və onda yalnız sevinc və mehribançılıq hissləri oyatmalıdır.

Çox vaxt valideynlər uşağın oyuncaqlarla oynamadığını və ancaq atanın evdə bir şey düzəltməsindən sonra qalan ev əşyaları və ya taxta küplərə üstünlük verdiklərini deyirlər. Uşaqların bir çox başqa oyuncağı olsa da, tez-tez anasının tikdiyi bezli oyuncaqlar ilə oynayırlar. Niyə? Çünki ağacdan hazırlanan oyuncaq "Sərt" və "İsti", parça və yundan hazırlanan ev, kukla isə "İsti" və "Yumşaq" olur. Uşağın barmaqları cansız plastiklər və ya soyuq metala toxunmur, isti və təbii materiala toxunur.

Alimlərin fikrincə, oyun və oyuncaq hər hansı bir mədəniyyətin ən vacib tərkib hissəsidir. Mədəniyyət necədirsə, oyuncaqlar da belədir. Oyuncağın köməyi ilə uşağa insan münasibətlərinin mahiyyəti ötürülür. Oyuncaq uşaq psixikası və körpənin şəxsiyyətinin inkişafına ciddi təsir edir. Həqiqətən, o, canlı və gerçəkdir. Bir oyuncaq ilə oynayan uşaq ən çox özünü oyuncaqla eyniləşdirir. Uşaqlar vaxtının çox hissəsini oyuna sərf edirlər. Bu baxımdan oyuncaq cəmiyyətdə qəbul edilmiş norma və mənəvi-əxlaqi dəyərlərə uyğun seçilməlidir.

Oyuncaq hansı halda zərərlidir? Əgər oyuncaq:

- Uşağı aqressiya və qəddarlığa təhrik edirsə;
- Qorxu və ya narahatlıq doğurursa;
- Uşağın tam inkişafına ziyan vuran psixoloji asılılığa səbəb olursa;
- Ətraf gerçəkliyin qavranılmasını təhrif edirsə.

Oyuncaq hansı halda faydalıdır? Əgər oyuncaq:

- Təhlükəsizdirsə;
- Cəlbedicidirsə;
- Estetikdirsə;
- Uşağın yaş imkanlarına uyğundursa;
- Çoxfunksiyalıdırsa (uşağın bacarıqlarının inkişafı üçün imkan verir: fiziki, mənəvi, əxlaqi və s.);
- Ekoloji təmiz materiallardan hazırlanıbsa;
- Qablaşdırılmışdırsa.

Oyuncağın tərtibatına müəyyən tələblər qoyulur:

- Oyuncaq uşaqda emosional münasibət yaratmaq, bədii zövqü tərbiyə etmək üçün cəlbedici və rəngarəng tərtibatda olmalıdır;
- Bədii ifadə dizayn, forma və rəngin ahəngdar birləşməsi ilə təmin olunmalıdır;
- Oyuncağın hazırlandığı material düzgün seçilməlidir (müşahidələr yumşaq və tüklü materialların müsbət emosiyalara səbəb olduğu və uşaqları oyuna təşviq etdiyini; kobud və soyuq səthli oyuncaqlar bir qayda olaraq sevilmir);
- Oyuncaqlar uşağın həyatı və sağlamlığı üçün təhlükəsiz olmalı və bir sıra gigiyenik tələblərə cavab verməlidir.

Oyuncaqların vəziyyətinə tez-tez nəzarət edilməli, təmir və qüsuru olan oyuncaqların isə kənarlaşıdırılmasına diqqət yetirilməlidir.

Məktəbəqədər müəssisədə oyuncaqlar müvafiq şəkildə yerləşdirilməlidir. Bu da müəyyən avadanlıqlardan istifadə olunmasını tələb edir: rəflər, qutu və topların saxlanması üçün torlar.

Müasir tələblərə tam cavab verən oyuncağın yaradılması müxtəlif profilli mütəxəssisləri tərbiyəçi-müəllimlər, psixoloqlar, həkimlər, rəssamlar, heykəltəraşlar, dizaynerlər, texnoloqlar və mühəndisləri bir araya gətirməklə mümkündür.

Sosioloqların fikrincə, bir çox ölkələrdə eyni qeyri-sağlam tendensiya yaranmaqdadır. Uşaqlara bahalı oyuncaqlar almaqla böyüklər öz yüksək sosial statusu və öz rifahını vurğulamağa çalışır. Psixoloqlar sosioloqların bu narahatlığını bölüşərək hadisələrin bu cür inkişafının böyüməkdə olan nəslin mənəvi dəyərlərinin azalmasına səbəb ola biləcəyindən ehtiyat edirlər.

Alimlər belə qənaətə gəliblər ki, uşaqda çox sayda oyuncaq olsa da, o, onlardan yalnız 2-3-nü seçir, onlarla oynayır və həmin oyuncaqlar digər oyuncaqları da əvəz edir. Bu səbəbdən, uşağın az sayda oyuncağının olması daha yaxşıdır, çünki bu halda uşaq onlara diqqət və məhəbbətlə yanaşacaq.

## Tələbələr üçün fəaliyyətlər

1. Uşaqlıqda sevdiyiniz oyuncaq haqqında uşaqlar üçün bir hekayə hazırlayın və yazın.
2. "Oyuncaqların növləri" sxemini hazırlayın.
3. Tixeyevanın sözlərini necə başa düşdüyünüzü izah edin: "Uşaq oyuncağı sevir. Nəfsi, fəaliyyəti və yaradıcılığının uzun bir təzahürü üçün ayrılmış bir nöqtəni yüksək qiymətləndirir".
4. İki qrupa bölünərək bir sualın cavabını araşdırın və müzakirə edin:
   - Məktəbəqədər təhsil müəssisəsinin müxtəlif yaş qruplarında oyuncaqların müqayisəli təhlilini aparın və təhsilin prioritet sahələrini müəyyənləşdirin. Təhlilin nəticələrinə əsasən uşağın inkişafı üçün hansı oyuncaqların daha səmərəli olduğunu müəyyən edin.
5. Qrup müzakirələri təşkil edin:
   - Müşahidələr və fərdi söhbətlər əsasında uşaqlar və böyüklərin hansı oyuncaqlara üstünlük verdiklərini öyrənin. Sizcə, bunun nə ilə əlaqəsi var? Onların pedaqoji məqsədəuyğunluq və didaktik dəyərini müəyyənləşdirin.
6. Situasiyanı təhlil edin:
   Uşaqlara oynamaq üçün köhnəlmiş bloklar (kubiklər) verildi, yeni oyuncaq tikinti materialından isə tərbiyəçi-müəllim hündürmərtəbəli bina düzəlti. Uşaqlar kubiklə necə oynamaq lazım olduğunu bilmədiklərinə görə onlar köhnəlmiş kubiklərlə oynamalıdırlar, yeni kubiklərdən hazırlanmış tikili isə otağın dizaynı üçündür.
   - Qrup otağında sırf dizayn və ya bəzək məqsədi ilə oyuncaqlar yerləşdirilə bilərmi?
   - Oyuncaqların seçilməsi və qrup otağında yerləşdirilməsi üçün hansı tələblər var?

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Təlim, tərbiyə və inkişaf prosesində oyuncaq, material və avadanlıqları uşaqların yaş xüsusiyyətlərinə uyğun seçmək”**

1. Təqdim olunan tədris və metodik ədəbiyyat əsasında valideynlərə "Uşaqların inkişafında oyuncaqların rolu" mövzusunda məsləhətlərin dəstəkləyici-məntiqi diaqramını tərtib edin.

2. Hər hansı oyuncaq seçin və cədvəldə göstərilən meyarlar əsasında onun göstəricilərini qeyd edin:

| № | Uşağın yaşı | Oyuncağın quruluşu | Oyuncağın əhəmiyyəti | Oynayarkən müəllimin dəstəyi |
|---|---|---|---|---|
| 1. | 3 yaş | | | |
| 2. | 4 yaş | | | |
| 3. | 6 yaş | | | |

3. Aşağıdakı mövzulara dair təqdimat hazırlayın:
   - Oyuncağın mənşəyi.
   - Oyuncağa qoyulan tələblər.
   - Oyuncağın növləri.
   - Məktəbəqədər yaşlı uşaqların inkişafında oyuncağın rolu.

## 2.4. Təhlükəli vəziyyətlərdə düzgün davranış qaydalarının tətbiqi üçün müxtəlif metodları təsvir edir

### Davranış qaydalarının tətbiqi

### Təhlükəli vəziyyətlərdə düzgün davranış qaydaları

Təəssüf ki, çox vaxt insanlar öz ehtiyatsızlığından əziyyət çəkirlər. Çünki düşünülməmiş hərəkətlərin nəticələrini qabaqcadan görə bilmir və fövqəladə hallardan özləri və ətrafdakıları qorumaq üçün lazımi tədbirlər görməyi unudurlar. Belə hallarda ən az müdafiə olunan uşaqlar olur, çünki yaranmış ekstremal vəziyyətlərdə özünü necə aparmalı olduqlarını bilmirlər.

### Təhlükə nədir?

Təhlükə - həyat təhlükəsizliyinin mərkəzi anlayışıdır və gizli xarakter daşıyır.

Təhlükənin (Şəkil 2.13) nəticələri:

- Həyat üçün təhlükə;
- Sağlamlığa zərər vurma ehtimalı;
- İnsan orqan və sistemlərinin normal işləməsi üçün şərtlərin pozulması.



**Şəkil 2.13. Təhlükənin müəyyənləşdirilməsi**

İnsanın olduğu yer ilə bağlı bir sıra təhlükələr:

- Evdə təhlükə;
- Yol və küçədə təhlükələr;
- Təbiətdə təhlükə;
- Tanımadığınız insanlar ilə ünsiyyət zamanı təhlükələr.

Təhlükəsizlik anlayışı insanın həyatına qədim zamanlardan daxil edilmişdir. Praktiki olaraq hər addımda biz onun müxtəlif növləri ilə qarşılaşırıq: məişət və yollarda təhlükəsizlik, yanğın və su təhlükəsizliyi, davranış, ünsiyyət, informasiya təhlükəsizliyi və s., hətta sağlam həyat tərzi də bu anlayışla bağlıdır. Təhlükəsizlik nədir? Niyə bu konsepsiya insan həyatının ayrılmaz bir hissəsidir?

Uşağın müxtəlif inkişaf mərhələlərində fəaliyyət göstərdiyi məkanın genişlənməsi istər-istəməz bir çox təhlükənin yaranmasına səbəb olur.

Bütün bunların qarşısının alınması mümkün deyil, amma tərbiyəçi-müəllim uşaqlara uşağın həyatı və sağlamlığı üçün potensial təhdidləri göstərmək və izah etmək,

mümkündürsə əgər onların qarşısının alınması yollarını öyrətmək qabiliyyətinə malik olmalıdır. Qaydaların əksəriyyəti real həyata uyğun tənzimlənir. Buna görə də təhlükəsiz davranışın əsaslarının formalaşdırılması üzrə məktəbəqədər təşkilatın işi uşaqların yaxınları ilə qarşılıqlı əlaqənin nəzərə alınması ilə qurulur.

Uşaqlarda təhlükəsiz davranışın əsaslarının formalaşdırılması - gündəlik, çətin, lakin son dərəcədə vacib bir işdir.

İnsanın həyat fəaliyyətinin təhlükəsizliyi müasirlik üçün ciddi problemdir.

Təhlükəsizliyə daxildir:

- Təhlükəni qabaqcadan görmək;
- İmkan daxilində yol verməmək;
- Zəruri hallarda hərəkət etmək.

Məktəbəqədər yaşlı uşaqlarda vəziyyətin təhlili və hərəkətlərin nəticələrinin proqnozlaşdırılması bacarıqları zəif inkişaf edir. Pedaqoqlar və valideynlərin vəzifəsi təkcə uşağı qorumaq və müdafiə etməkdən ibarət deyil, həm də onu müxtəlif çətin, bəzən isə təhlükəli həyat vəziyyətləri ilə görüşə hazırlamaqdan ibarətdir. Beləliklə, dünyaya olan təbii maraqları, açıqlığı və inamı boğmadan uşaqları təhlükələrdən qorumaq, onları qorxutmamaq və tam bir həyata hazırlamaq lazımdır. Bu baxımdan uşağın sosial təhlükəsizliyinin təmin edilməsi üçün effektiv üsullar axtarmaq lazımdır.

Uşaqların təhlükəsizliyinin artırılması üçün onlar o qədər də mürəkkəb biliklər və bacarıqlara malik olmamalıdırlar. Onlar öz səhvlərini müşahidə etmək və təhlil etməyi bacarmalıdırlar. Buna görə də uşaqda ətrafındakıların şəxsi təhlükəsizliyinə şüurlu və məsuliyyətli münasibət formalaşdırılmalı, qeyri-adekvat vəziyyətlərdə effektiv və əsaslandırılmış hərəkətlərə hazırlaşdırılmalıdır.

Bu vəzifələr həm valideynlər, həm də uşaq təhsil müəssisələrinin müəllimləri qarşısında durur.

### Təhlükəsiz davranışın formalaşdırılması

Təhlükəsizlik təhlükənin olmaması deyil, ondan qorunmaqdır.

Təhlükələrdən qorunmaq üçün təhlükənin haradan gəldiyini anlamaq lazımdır.

Təhlükə mənbələrinin ən müxtəlif təsnifatları var, lakin əsasən iki mənbəyi var: təbii və sosial.

Mövsümi hadisələr, güclü hava dəyişiklikləri (qasırğalar, fırtınalar və s.), flora və faunanın müxtəlif dəyişiklikləri kimi təhlükələrin mənbələri təbiətlə bağlıdır.

Təhlükələrin sosial mənbəyi insanın fəaliyyəti və onun əməyinin nəticələri ilə bağlıdır.

Məktəbəqədər yaşlı uşaqlarla işin nəticələri tərbiyəçi-müəllimin öz işində seçdiyi təhlükələrin təsnifatı ilə müəyyən edilir:



**Şəkil 2.14. Süni əşyalar**

- Küçələr və yollarda təhlükəsizlik;
- Əşya və mikroorqanizmlər (Şəkil 2.14);
- Gündəlik həyatda təhlükəsizlik (mikroblardan qorunma və şəxsi gigiyena qaydaları);
- Təbiətdə təhlükəsizlik (bitki və heyvan dünyası və təbii hadisələr);
- İcma ilə qarşılıqlı təhlükəsizlik;
- Yanğın təhlükəsizliyi.

Təhlükə mənbəyini dərk edən bəşəriyyət şərti olaraq iki qrupa aid edilə biləcək müxtəlif təhlükəsiz davranış qaydaları üzərində işləyir:

- Profilaktik xarakter daşıyan və mümkün təhlükəli halların qarşısının alınmasına (Şəkil 2.15) yönəldilmiş xəbərdarlıq qaydaları;
- Təhlükəli vəziyyətdə həyat və sağlamlığın qorunmasına yönəldilmiş davranış qaydaları.



**Şəkil 2.15. Profilaktik xarakterli tədbir**

Məktəbəqədər yaşlı uşaqlarla iş zamanı təhlükəsiz davranışın əsaslarının formalaşdırılması üzrə işlərin əsas məzmunu xəbərdarlıq qaydaları əsasında qurulur. Bu qaydaların əksəriyyəti uşağın real həyatında tətbiq olunur. Məsələn, mədəni gigiyena bacarıqları, nitq etiketinin formalaşdırılması çərçivəsində və ikinci qrup qaydalar (etiket vəziyyətində davranış qaydaları) ailə tərbiyəsi şəraitində daha fəal və effektiv şəkildə hazırlanır.

Ona görə də müəllimlərin işi uşaqların ailələri ilə qarşılıqlı fəaliyyəti ilə sıx bağlıdır.

Təhlükəsizlik qaydalarının pozulmasının səbəbləri təhlükəsiz davranış əsaslarının formalaşdırılması üzrə iş sisteminin əsas istiqamətlərini müəyyənləşdirir. Bunlara aşağıdakılar daxildir:

- Uşaqlara veriləcək biliklər (təhlükələr, onların xüsusiyyətləri və yaranma səbəbləri);
- Formalaşdırılacaq bacarıqlar (təhlükədən qorumaq və təhlükəli halların qarşısının alınması);
- Təhlükəsiz yaşayış mədəniyyətinin tərbiyə edilməsi (özü, digər insanlar və ya təbiət obyektlərinin vəziyyətindən təhlükəsizliyə münasibət).

Gündəlik həyat, cəmiyyət və təbiətdə təhlükəsizlik əsaslarının formalaşdırılması bölməsində tədris prosesinin təşkili məktəbəqədər təhsilin dövlət standartlarını vurğulayan məktəbəqədər təhsilin kurrikulumuna əsaslanır.

Məktəbəqədər yaşlı uşaqların həyat fəaliyyətinin təhlükəsizliyi və sağlam həyat tərzinin formalaşdırılması üzrə hansı işlər görülməlidir?

- Uşaqların öz aralarında qarşılıqlı əlaqələrini inkişaf etdirən oyunlu vəziyyətlər

təşkil etmək;

- Böyüklərin uşaqlarla müstəqil və birgə fəaliyyətlərində tanış qaydalardan istifadə etməyə təşviq edən əşyavi-oyun mühiti yaratmaq.

Uşaqların ciddi şəkildə yerinə yetirməli olduqları davranış qaydalarını qeyd etmək və onlara təqdim etmək lazımdır, çünki onların sağlamlıq və təhlükəsizliyi bundan asılıdır. Bu qaydalar uşaqlara ətraflı izah edilməli və sonra onların yerinə yetirilməsinə nəzarət edilməlidir.

Lakin təhlükəsizlik yalnız öyrənilmiş biliklərin həcmi deyil, müxtəlif vəziyyətlərdə həmin biliklərdən istifadə edərək düzgün davranmaq qabiliyyətidir.

Bundan başqa, uşaqlar küçə və evdə gözlənilməz vəziyyətə düşə bilərlər, buna görə böyüklərin əsas vəzifəsi onlarda müstəqillik və məsuliyyətin inkişafının stimullaşdırılmasıdır.

Beləliklə, uşaqlarla iş sistemli şəkildə aparılmalıdır.

Təhlükəsiz davranışların öyrənilməsi uzun illərin işidir. Burada bir-iki söhbətlə heç nə əldə etmək olmaz.

Hər bir təhlükəsiz davranış bacarığı tədricən formalaşdırılır. Tərbiyəçi-müəllim əmin olmalıdır ki, uşaq deyilən məlumatı öyrənib və ona hər şey aydındır. Təhlükəsizlik qaydalarına əməl olunması uşaqda avtomatizmə çatdırılmalıdır. Yalnız bundan sonra uşağın təhlükəsizliyinə zəmanət verilir. Lakin yadda saxlamaq lazımdır ki, ən vacib şey valideynlər, müəllimlər və ümumilikdə böyüklərin fərdi nümunəsidir.

**Təhlükəsiz davranışın formalaşdırılma üsulları**

Məktəbəqədər yaşlı uşaqların təhlükəsizliyinin təmin edilməsi iki istiqamətdə aparılmalıdır:

- Otaq və həyətdə travmatik vəziyyətlərin aradan qaldırılması;
- Məktəbəqədər yaşlı uşaqların özləri arasında təhlükəsiz davranışın inkişafı.

Məktəbəqədər təhsil müəssisəsinin binası və sahəsində travma təhlükəsi olan halların qarşısının alınması və aradan qaldırılması üçün şəraitin yaradılması sanitar qaydalar və normalarla tənzimlənir və bu, məktəbəqədər təhsil proqramını həyata keçirən təhsil müəssisəsinin fəaliyyəti üçün dəyişməz qanunvericilik şərtidir.

Məktəbəqədər yaşlı uşaqlarda təhlükəsiz davranış tərbiyəsinin ən geniş yayılmış üsullarını nəzərdən keçirək.

İnformasiyanın ötürülməsi və qavranılmasının xarakterinə görə metodlar **şifahi** (hekayə, söhbət, uşaqlara suallar və s.), **əyani** (nümayiş və s.) və **praktik** (yaradıcılıq layihələrinin, oyunların və məşqlərin yerinə yetirilməsi və s.) növlərə bölünür.

Cədvəl 3.1-də Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-müəllimlərin işində istifadə olunan metodlar və onların növlərinin ümumiləşdirilmiş variantı təqdim olunur:

| Metodlar | Körpələr, orta və böyük yaş | Məktəbəhazırlıq yaş |
|---|---|---|
| **Əyani** | Yetkinlər və böyük məktəbəqədər uşaqların davranış qaydaları | Böyüklərin davranış nümunəsi |
| | Rəsmlər, şəkillər, illüstrasiyalar və əyani vəsaitlərə baxış | Rəsmlər, şəkillər, bukletlər, illüstrasiyalar, əyani və multimedia vəsaitlərinə baxış |
| | Cizgi filmləri və diafilmlərə baxış | Təlim cizgi filmləri, filmlər və onlayn diafilmlərinə baxmaq |
| | Multimedia təqdimatlarının nümayişi | Multimedia təqdimatlarının nümayişi, nümayiş fraqmentləri və elektron ensiklopediyalar |
| | Problemli situasiyalarda kukla tamaşalarının nümayişi | Problemli situasiyalarda kukla və dram tamaşalarının nümayişi |
| | Obyektlər və obyektlərlə təhlükəsiz hərəkətlər və ən sadə təcrübələrin nümayişi | Elementar təcrübələrin nümayişi |
| | Sadə müşahidələr | Müqayisəli müşahidələr və ekskursiyalar |
| **Şifahi** | Situasiya üzrə fərdi ünsiyyət | Situasiyaya uyğun fərdi və qrup ünsiyyəti |
| | İzahat və xatırlatma izahatı | İzahat, xatırlatma izahatı və şifahi təlimat |
| | Bədii ədəbiyyatın oxunması və tapmacalar | Bədii ədəbiyyatın oxunması, tapmacalar və tapmacaların tərtib edilməsi |
| | Hekayə və hekayə-izahat | Hekayə və uşaqların şəxsi təcrübəsindən hekayələr hazırlamaq |
| | Söhbətlər və problemli vəziyyətlərin müzakirəsi | Söhbətlər və problemli vəziyyətlərin həlli |
| **Praktiki** | Qaydalı oyunlar | Qaydalı oyunlar, oyun hərəkətləri və kompüter oyunları |
| | Müstəqil uşaq oyunları (süjet və qaydaları ilə) | Müstəqil uşaq oyunları (süjet və qaydaları ilə) |
| | Ev təsərrüfatının potensial təhlükəli predmetləri ilə situasiya-imitasiya hərəkətlərinin | Qrup otağı, nəqliyyat vasitələri və şəhər küçələrinin maketindən istifadə edilərək oyun hərəkətləri |

| | | |
|---|---|---|
| | modelləşdirilməsi | və vəziyyətinin modelləşdirilməsi |
| | Məhsuldar və rol xarakterli yaradıcı tapşırıqların yerinə yetirilməsi | Yaradıcılıq layihələrinin və viktorinalar, müsabiqələr və komanda oyunlarının keçirilməsi |
| | Qəzetlərin birgə hazırlanması | Qəzetlər, plakatlar və bukletlərin birgə hazırlanması |
| | Kitabçaların hazırlanması | Kitabçalar, elektron kitablar və cizgi filmlərinin çəkilişi |
| | Səhnələşdirilmiş oyunlar | Tamaşaların hazırlanması və nümayişi (uşaqlar danışır və göstər) |

**Cədvəl 3.1. Məktəbəqədər təhsil müəssisəsinin müəllimlərinin işində istifadə olunan metodlar və onların növlərinin ümumiləşdirilmiş variantı**

Uşaq davranışının qadağalar yolu ilə tənzimlənməsi minimum səviyyədə olmalıdır. Böyüklərin nümunəsi - məktəbəqədər yaşlı uşaqlar üçün təhlükəsiz davranışın ən yaxşı dərsidir.

**Təhlükəsiz davranış bacarıqlarının formalaşdırılmasına uyğun oyunlar**

Hər kəs uşaqların oynamağı sevdiyini bilir. "Gəlin oynayaq" təklifi həmişə onların razılığına zəmanət verir. Razılıq və maraq varsa, belə bir əhval-ruhiyyə ilə uşaq oyunda didaktik tapşırıqları asanlıqla dərk edəcək və mənimsəyəcəkdir.

Qaydalarla təklif olunan oyunlar təhlükəsizliyin aşağıdakı sahələri ilə əlaqəli fikirlərin genişləndirilməsi və bacarıqların inkişaf etdirilməsinə yönəldilmişdir: küçə, yollar, ev və təbiətdə təhlükəsizlik, təhlükəsiz cəmiyyətlə qarşılıqlı əlaqə və yanğın təhlükəsizliyi.

**Küçələr və yollarda təhlükəsizlik haqqında 3-4 yaşlı uşaqlar üçün oyun**

Tərbiyəçi-müəllim deyir: “Uşaqlar, sizinlə nənələrinizi ziyarət edəcəyik. Mən yaşıl dairəni göstərəndə gedəcəyik, qırmızı dairəni göstərəndə isə dayanacağıq”.

Uşaqlar rəngləri fərqləndirməyi yaxşı öyrəndikdə tərbiyəçi-müəllim işıqforun yaşıl işığı ilə niyə getmək lazım olduğu və qırmızı işıqda durmaq lazım olduğunu izah edə bilər.

Uşaqlar avtomobil şəkillərinə baxırlar.

Oyun vəziyyətlərində özümüzü ictimai yerdə davranmağı təkmilləşdiririk.

**Təhlükəsizlik adası (4-5 yaşlı uşaqlar üçün)**

Məqsədləri: Svetofor siqnalları haqqında uşaqların biliklərini gücləndirmək, diqqətlilik və siqnalla hərəkət etmək qabiliyyətini inkişaf etdirmək.

Materiallar: Musiqi alətləri və oyun otağının mərkəzindəki hasara alınmış zona. Oyunun gedişi: Uşaqlar musiqi müşayiəti ilə müxtəlif hərəkətlər edirlər. Musiqi dayandıqda uşaqlar tez zonanın mərkəzində dayanmalıdırlar (təhlükəsizlik adası).

**"İşıqforu yığın" (4-5 yaşlı uşaqlar üçün)**

Məqsədləri: İşıqforun siqnallarının əhəmiyyətini sadalayır;

Topun ötürülmə bacarıqlarını nümayiş etdirir;

Komanda formasında olan oyunda hərəkət edir.

Materiallar: 3 ədəd hava topu.

Oyunun gedişi: Uşaqlar iki komandaya bölünürlər. Hər komandanın kapitanı seçilir və ona qırmızı, sarı və yaşıl toplar verilir. Müəllimin siqnalı ilə komanda kapitanı qırmızı topu növbəti oyunçuya ötürür və s.. Top son oyunçuya çatdırıldıqda yuxarı qaldırılır və bu, ilk qırmızı işığın yanması deməkdir. Yalnız bundan sonra kapitan zəncir boyu sarı topu ötürür. Sonda isə yaşıl topu ötürür. Zəncir boyunca bütün üç topu daha sürətli ötürən komanda udur (üç yol nişanını işıqlandıracaq).

**Məişətdə təhlükəsizlik**

**Bir, iki, üç və təhlükəli bir əşya tapın!**

**(4-5 yaş uşaqlar üçün)**

Materiallar: Potensial təhlükəli obyektlərin təsviri olan kartlar.

*Oyunun gedişi:* Tərbiyəçi-müəllim və uşaq oyuncaqlara üzünü döndərib deyir:

“1, 2 və 3! Diqqətlə bax! 1, 2 və 3! Təhlükəli əşyanı tap!”

Bu müddət ərzində oyunçular təhlükəli ola biləcək əşyaların şəkillərini tapmalı və göstərməlidirlər (elektrik rozeti, masa küncü və pəncərə). Sonra aparıcı hər bir oyunçuya yaxınlaşır və niyə belə bir seçim etdiyini soruşur və təhlükənin qarşısını almaq üçün nə edilməsi lazım olduğunu izah etməyi xahiş edir.

**"Təhlükəli - təhlükəsiz"**

**(3-5 yaş uşaqlar üçün)**

Materiallar: Təhlükəsiz və potensial təhlükəli obyektlər təsvir edilən kartlar dəsti (məsələn, gəlincik, boyalar, qayçı, yapışqan, çəngəl və qaz sobası) və kartların arxa tərəfində təhlükəli əşyalar üçün qırmızı, təhlükəsiz əşyalar üçün isə yaşıl işarələr var.

*Oyunun gedişi:* Uşaqlar fərdi və ya kiçik qruplar şəklində oynaya bilərlər (2-4 nəfər).

Böyüklər kartları masada qarışdırır və uşağa onları iki qrupda yerləşdirməyi təklif edirlər: Birində bütün təhlükəsiz əşyaları, digərinə isə onlarla ehtiyatsız rəftar etdikdə təhlükəli ola bilən əşyaları qoymaq.

Tapşırığın sonunda kartlar tərsinə çevrilir və uşaq tapşırığın düzgünlüyünü müstəqil olaraq yoxlamaq imkanı əldə edir.

**Təbiətdə təhlükəsizlik**

**“Həşərat dünyası”**

Material: İştirakçıların sayına görə insanlar üçün təhlükəli və təhlükəsiz olan həşərat şəkilləri, qırmızı və yaşıl halqa.

Oyunun gedişi: Şəkil olaraq iki fərqli həşərat qrupundan istifadə olunur: Kəpənək və ağcaqanadlar, xallı böcək və arılar, may böcəyi və arılar. Qrupun müxtəlif yerlərində halqalar yerləşdirilir: Qırmızı - təhlükəli həşəratlar üçün və yaşıl - təhlükəsiz həşəratlar üçün. Böyüklərin "Gün!" siqnalına uyğun olaraq oyunçular oyun meydançasından qaçırlar. "Gecə!" siqnalına uyğun olaraq öz halqasının yanında yığışırlar (halqanın rəngi oyundan əvvəl müəyyən olunur). Öz evini birinci tutan qrup qalib gəlir.

**Təhlükəsizlik qaydalarının tətbiqi ilə bağlı ailələrlə işləmək**

Bir çox şəxsi təhlükəsizlik qaydasının tətbiqi və inkişafı valideynlərin fəal iştirakı olmadan mümkün deyil. Bu məzmun üzərində iş təşkil edilərkən valideynlərin cəlb edilməsi lazımdır. Tərbiyəçi-müəllimlər həmfikir olmalıdırlar. Uşaqlarda təhlükəsiz davranışın formalaşdırılması ilə əlaqədar valideynlərlə görüş təşkil edilməlidir. Valideynlərə izah edilməlidir ki, qaydaların tam mənimsənilməsi üçün uşaq təkbaşına öyrənməməli, mütləq real şəkildə əməldə görməli və real həyatda müşahidə etməlidir. Valideynlərlə görüşərkən aşağıdakıları etmək lazımdır:

- Bu mərhələdə uşaqların təhlükəsizlik probleminin aktuallığı və vacibliyini izah etmək;
- Müəllimin il ərzində uşaqları tanış edəcəyi qaydaların dairəsini təyin etmək.

Eyni zamanda, hər bir yaş qrupunda olan uşaqların hansı qaydalara diqqət yetirməli olduqları və hansı dinamikada mürəkkəbləşə biləcəklərini göstərmək lazımdır. Valideynlərin diqqətini ona yönəltmək lazımdır ki, uşağın təhlükəsizliyi ilə bağlı müəyyən məsələlər yalnız ailədə həll edilə bilər. Bu ilk növbədə "Evdə təhlükə" mövzusuna aiddir. Təhlükəli əşyalarla rəftar barədə uşaqla xüsusi iş aparılmalıdır.

## Tələbələr üçün fəaliyyətlər

1. Məktəbəqədər yaşlı uşaqlar üçün həyat təhlükəsizliyi və sağlam həyat tərzini təbliğ etmək üçün hansı işlər görülməlidir? Qrup yoldaşlarınızla birgə müzakirə edin.

2. Məktəbəqədər təhsil müəssisəsində uşaqlar üçün təhlükəsiz şəraitin yaradılması üçün istifadə edilən metodları cədvələ uyğun tərtib edin:

| Metodlar | Körpələr, orta və böyük yaş | Məktəbəhazırlıq yaş |
|---|---|---|
| Əyani | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| Şifahi | | |
| | | |
| | | |
| | | |
| | | |
| Praktiki | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

3. "Nağıllar yalandır, amma nəyəsə işarədir" oyunu

Hər kəs nağılları bilir (ən çox təhlükəsiz davranış qaydalarını pozan qəhrəmanların nümunələrini ehtiva edir).

1. Həyat təhlükəsizliyinin pozulması kədərli nəticələrə gətirib çıxardığı nağıllar hansılardır. Kim daha çox nağıl və hekayə adı çəkər ? Niyə? İzah edin.
2. Hər hansı bir nağıl seçin və onu "Yenidən" elə yazın ki, təhlükə aradan qalxsın.
3. Tövsiyə: Bu fürsətdən istifadə edilərək uşaqların fikirlərinin möhkəmləndirilməsi yollarını göstərin.

4. Müzakirə sualları:
    1. Təhlükəli vəziyyətlərdə düzgün davranış qaydalarının tətbiqi zamanı nəzərə alınmalı metodların əsas şərtləri hansılardır?
    2. Təhlükəli vəziyyətlərdə düzgün davranış qaydaları hansılardır?
    3. Təhlükəli vəziyyətlərlə bağlı ailələrlə aparılan iş qaydaları hansıdır?

5. Tapşırıq:
    1. Təklif etdilən suallar haqqında ədəbiyyatlarda nəzəri məlumat axtarışı;
    2. Alınan məlumatların qavranılması və termin və anlayışların inkişafı;
    3. Hər bir suala cavab üçün bir plan tərtib etmək;
    4. Bu mövzuda nümunələrin axtarışı (testlər, pedaqoji təcrübə nümunələri və s.).

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Təhlükəli vəziyyətlərdə düzgün davranış qaydalarının tətbiqi üçün müxtəlif metodları təsvir etmək"**

1. Təhlükəli vəziyyətlərdə düzgün davranışa dair tərbiyəçi-müəllimlər üçün qoyulan tələblər mövzusunda referat hazırlayın.

2. Aşağıdakı cədvələ hər bir yaş qruplarına uyğun vəzifələri qeyd edin:

| 1-3 yaş | 3-4 yaş | 4-5 yaş | 5-6 yaş |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |

3. İnteryeri qurarkən təhlükəsizlik qaydalarına aid olanları qeyd edin:

| **Təhlükəsiz davranış qaydaları** | **Tərbiyəçi-müəllim** | **Uşaq** |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

## CAVABLAR

| Təlim Nəticəsi 1 üzrə düzgün cavablar | |
|---|---|
| Qiymətləndirmə meyarı 1 | |
| Sual 1 | A |

| Təlim Nəticəsi 2 üzrə düzgün cavablar | |
|---|---|
| Qiymətləndirmə meyarı 2 | |
| Sual 1 | E |
| Qiymətləndirmə meyarı 2 | |
| Sual 1 | C |

# ƏDƏBİYYAT SİYAHISI


1. Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 16 iyun 2017. http://www.president.az/articles/24248
2. "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin dövlət standartı" Bakı şəhəri, 8 avqust 2019-cu il № 351
3. "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı". 16 iyul 2010-cu il. http://www.edu.gov.az/
4. Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri. 171nömrəli qərar. Bakı 2012
5. A. Həsənov "Məktəbəqədər pedaqogika" Bakı-2000
6. L.Cəfərova Məktəbəqədər müəssisə rəhbərinin stolüstü kitabı. Bakı-2015
7. Kərimov Y. Ş. "Təlim metodları". Bakı, 2009
8. Veysova Z. "Fəal (interaktiv) təlim: Müəllimlər üçün vəsait", UNİCEF, 2007.
9. İnnovativ dərs modelləri. Müəllimlər üçün metodik vəsait. Bakı, Açıq Cəmiyyət İnstitutu– Yardım Fondu, 2002.
10. Pometun E. "İnteraktiv təlim". (Müəllimlər üçün tədris vəsaiti) (Tərcümə edəni K.Quliyeva) Bakı, 2010
11. Məktəbəqədər təhsilin kurikulumu (Layihə) Bakı-2017
12. Арсентьева В.П. "Игра – ведущий вид деятельности в дошкольном дет-стве: учеб. пособие". – М., 2009.
13. Козлова С.А., Куликова Т.А. "Дошкольная педагогика". – М., 2007.
14. Макаренко А.С. "Лекции о воспитании детей (любое издание)".
15. Менджерицкая Д. "Детские игры. Дошкольное воспитание". 2008. № 5. – С. 10.
16. Флерина Е.А. "Игра и игрушка". – М., 1973.
17. Эльконин Д. "Воспитательное значение сюжетной ролевой игры // Дошкольное воспитание". 2008. № 8. – С. 17.
18. Монакова Н.И. "Развитие эмоциональной сферы дошкольника". СПб "Речь" 2008.
19. Новоселова С. "Развивающая предметная среда: Методические рекомендации по проектированию вариативных дизайн – проектов развивающей предметной среды в детских садах и учебно-воспитательных комплексах" Л.Н. Павлова. 2-е изд. – М.: Айресс Пресс, 2007. - 119 с.
20. "Здоровьесберегающая инфраструктура в системе образования [Текст]: учебное

пособие” / [Э.М. Казин, Н.П. Абаскалова, Р.И. Айзман и др., отв. ред.: Э.М. Казин, Н.Э.

21. Касаткина]. – М: Изд-во «Омега-Л», 2014. – 575 с. : ил. табл. – (Университетский учебник).
22. Кравцов, Г. Г. “Психология и педагогика обучения дошкольников” [Текст] / Г. Г.
23. Кравцов, Е. Е. Кравцова. – М. “МОЗАИКА-СИНТЕЗ”, 2013. – 264 с. - [Электронный ресурс)
24. Коджаспирова, Галина Михайловна. “Педагогика” .учебник / Г. М.Коджаспирова. - М. КноРус, 2010. - 740 с.
25. Менг, Т.В. “Исследование образовательной среды: проблемы, подходы, модели” [Электронный ресурс] / Т.В. Менг. – 2011. 98 с. URL: http://e.lanbook.com/books/element.php?pl1_id=5588 (дата обращения: 27.12.2014).
26. “Психолого-педагогические и здоровьесберегающие аспекты формирования адаптивноразвивающей образовательной среды: учеб. пособие" / Кемеровский гос. унт.
27. Кафедра человека и животных и валеологии, Лаборатория развития личности центра довузовской подготовки; [отв. ред. Э.М. Казин]. – Кемерово: Сибирская издательскаягруппа, 2009. – 82 с.
28. Тульчинский Г.Л., Артемьева Т.В. “Привлечение средств на проекты и программы в сфере образования и науки” [Электронный ресурс]: Учебное пособие/ Г.Л.Тульчинский, Т.В. Артемьева. – Изд-во: «Лань», «Планета музыки». – 2010. – 288 с. -URL: http://e.lanbook.com/books/element.php?pl1_id=1929 (дата обращения: 27.12.2014).
29. Allen, K. E., & Cowdery, G. E. (2014). “*The exceptional child: Inclusion in early childhood education”*. Independence, KY: Wadsworth Publishing.
30. Barton, E. E., & Smith, B. J. (2015). “*The preschool inclusion toolbox: How to build and lead a high-quality program”*. Baltimore, MD: Brookes.
31. The Division of Early Childhood (DEC), & the National Association for the Education of Young Children (NAEYC). (2009, April). “*Early childhood inclusion”*. Position statement. Retrieved on December 9, 2015, from http://www.naeyc.org/files/naeyc/file/positions/DEC_NAEYC_EC_updatedKS.pdf
32. Dunlap, G., Wilson, K., Strain, P., & Lee, J. K. (2013). “*Prevent, teach, reinforce for young children: The early childhood model of individualized positive behavior support”*. Baltimore, MD: Brookes.
33. Gauvreau, A. N., & Schwartz, I. S. (2013). “Using visual supports to promote appropriate behavior in young children with Autism and related disorders. *Young Exceptional Children Monograph Series”, 15*, 29–44.

34. Lamm, S., Grouix, J. G., Hansen, C., Patton, M. M., & Slaton, A. J. (2006). "Creating environments for peaceful problem solving. *Young Children", 6*(1), 22–28.

35. Meece, D., & Soderman, A. K. (2010). "*Positive verbal environments: Setting the stage for young children's social development*". Retrieved on December 9, 2015.

36. Sainato, D. M., & Carta, J. J. (1992). "*Classroom influences on the development of social competence of preschool children with disabilities: Ecology, teachers, and peers*". In S. L. Odom, S. R. McConnell, & M. A. McEvoy (Eds.), Social competence of young children with disabilities: Issues and strategies for intervention. Baltimore, MD: Brookes.

37. Sandall, S. R., & Schwartz, I. S. (2008). "*Building blocks for teaching preschoolers with special needs*". Baltimore, MD: Brookes.

38. Santora, L., & Anti-Defamation League staff. (2012). "*How can you create a*

39. *learning environment that respects diversity?"* Retrieved on December 9, 2015, from http://www.adl.org/assets/pdf/education-outreach/How-Can-You-Create-a-Learning-Environment-That-Respects-Diversity.pdf

40. Creative curriculum. For infants, toddlers and twos.USA, vashington, 2010.p.-247

41. Creative Curriculum for Preschool, Diane Trister Dodge, Teaching Strategies, Washington DC, 2008.

42. http://www.maam.ru/detskijsad/

43. https://nsportal.ru/detskiy-sad

44. http://festival.1september.ru/